Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 275 (8002) CÜMƏ AXŞAMI, 6 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




## Varşavada açılacaq "Azərbaycan Ticarət Evi" xarici ölkələrdə fəaliyyət göstərən sayca 5-ci mərkəzimiz olacaq

Dünya bazarlarına "Made in Azerbaijan" brendi ilə çıxan məhsullarımızın ixrac coğrafiyası genişlənməkdə davam edir. Bazarlarda böyük şöhrət qazanan məhsullarımızın xarici ölkələrdə tanıdılması, satışının təşkili ilə bağlı həyata keçirilən ixrac missiyası və açılan ticarət evləri bu işdə çox əhəmiyyətli rol oynayır.

İxracın genişləndirilməsi, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının zənginləşdirilməsi istiqamətində Prezident İlham Əliyevin "Made in Azerbaijan" brendinin xarici bazarlarda genişmiqyaslı təşviqinə dair 5 oktyabr 2016-cı il tarixli fərmanı mühüm əhəmiyyət kəsb edir. Fərmana uyğun olaraq, respublikamızın beynəlxalq əhəmiyyətli sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirakı təmin olunur, Azərbaycan məhsulları xarici KİV-də reklam edilir, ixrac təşviqinin geri ödənilməsi mexanizmi tətbiq olunur.

### Məhsul heç bir vasitəçi olmadan birbaşa ixrac edilir

Ümumiyyətlə, ticarət evlərinin yaradılması ilk növbədə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlara xarici bazarlara çıxış imkanlarını artırmağa imkan verir. Bu həm də xarici bazarlarla bağlı məlumatların əldə olunmasına, yerli ixracatçılarla Azərbaycan ixracatçılarının informasiya mübadiləsinə şərait yaradır.

Bu gün artıq Azərbaycan ənənəvi bazarlarla yanaşı, yeni bazarlara da çıxır. Ticarət evlərinin yaradılması da bu məqsədə xidmət edir. Yəni Azərbaycanın qeyri-neft məhsullarının heç bir vasitəçi olmadan birbaşa xaricə, yeni bazarlara çıxarılması üçün imkan yaranır.

Bir sözlə, ticarət evlərinin açılması iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verir, ölkələr arasında ticari-iqtisadi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynayır.

### İlk "Azərbaycan Ticarət Evi"

Noyabrın 19-da Prezident İlham Əliyevin Belarusa səfəri çərçivəsində Minks şəhərində Azərbaycanın ilk ticarət evi ilə tanışlıq zamanı da bu fikirlər bir daha təsdiqləndi.

Minskdə "Azərbaycan Ticarət Evi" 2017-ci ilin mayında açılıb. Belarus Prezidenti Aleksandr Lukaşenkonun 2016-cı ilin noyabrında ölkəmizə rəsmi səfəri zamanı cənab İlham Əliyevlə müzakirə olunan bir sıra məsələlərlə yanaşı, qısa müddət ərzində iki ölkə arasında əmtəə dövriyyəsinin artırılması, Azərbaycanın idxalında Belarus məhsullarının payının çoxaldılması, bu ölkədə "Azərbaycan Ticarət Evi"nin yaradılması, həmçinin Belarusda ölkədə istehsal edilməyən kənd təsərrüfatı və emal sənayesi məhsullarının Azərbaycandan idxal olunması barədə tapşırıqlar verilmişdi.

Ardı 4-cü səh.

## İlham ƏLİYEV:
# "Tahir Salahov Azərbaycanın fəxridir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Azərbaycanın və SSRİ-nin xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Tahir Salahovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunduğunu, onun hələ əvvəlki dövrlərdə Sosialist Əməyi Qəhrəmanının "Qızıl Ulduzu"na da layiq görüldüyünü vurğuladı. Dövlət başçısı 1-ci dərəcəli "Əmək" ordeninin müxtəlif sahələrdə görkəmli xidmətlərə görə verildiyini bildirdi. Tahir Salahovun müasir təsviri incəsənətin inkişafındakı rolunun bütün ictimaiyyət, xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini deyən Prezident İlham Əliyev 1998-ci ildə ulu öndər Heydər Əliyevin Tahir Salahovu "İstiqlal" ordeni ilə təltif etdiyini vurğuladı. Dövlət başçısı 2008-ci ildə ona Azərbaycanın ən yüksək ordeni olan "Heydər Əliyev" ordenini və 2015-ci ildə isə Heydər Əliyev Mükafatını təqdim etdiyini vurğuladı. Bu gün isə dünya şöhrətli rəssama "Əmək" ordeninin təqdim olunduğunu deyən Prezident İlham Əliyev özünün təşəbbüsü ilə yaradılan və üç dərəcəsi olan bu ordenin nisbətən yeni orden olduğunu və müxtəlif sahələrdə fəaliyyət göstərən görkəmli şəxslərə verildiyini bildirdi, Tahir Salahovun isə birbaşa 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunduğunu vurğuladı. "Siz bizim fəxrimizsiniz, Azərbaycan xalqının görkəmli oğlusunuz, siz həmişə öz sənətinizlə vətənə sədaqətlə xidmət etmisiniz, Azərbaycanı, xalqımızın istedadını, bizim incəsənətimizi təbliğ etmisiniz, bizi bütün dünyada təmsil edirdiniz və edirsiniz", - deyən Prezident İlham Əliyev Tahir Salahovun ulu öndər Heydər Əliyevlə şəxsi münasibəti və dostluğunun olduğunu bildirərək bu səmimi və çox möhkəm dostluğun hələ Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərlik etməzdən xeyli əvvəl başladığını vurğuladı. Dövlət başçısı Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verəndən sonrakı ağır illərdə, səhhətində problemlər yarandığı vaxtlar məhz Tahir Salahovun onun yanında olduğunu deyərək onların Moskvadakı söhbətlərini, görüşlərini xatırladı, bütün bunların Heydər Əliyev üçün böyük mənəvi dəstək olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, həmin zamanlarda vaxtilə Heydər Əliyevin kömək etdiyi, irəliyə çəkdiyi çoxları kənara çəkilmişdilər, ən yaxşı halda isə susurdular, bəziləri isə onun əksinə çıxış edirdilər. Hər şeyə, dünya şöhrətinə özü nail olan Tahir Salahov isə ulu öndərin yanında idi. Dövlət başçısı bunun çox qiymətli olduğunu və heç vaxt unudulmayacağını vurğuladı. Prezident İlham Əliyev illər keçdikdən sonra ona yenidən yüksək mükafatı təqdim etməkdən şad olduğunu bildirdi.





Sonra dövlət başçısı İlham Əliyev 1-ci dərəcəli "Əmək" ordenini Tahir Salahova təqdim edərək təbriklərini çatdırdı.

Azərbaycanın və SSRİ-nin xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahov yüksək mükafata görə təşəkkürünü bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman öz işini sevən, qeyri-adi, istedadlı bir şəxsiyyət olduğunu deyən Tahir Salahov həyat yolunda onunla dostluq münasibətlərindən böyük xoşbəxtlik duyduğunu söylədi. "Bizi incəsənət birləşdirmişdi", - deyən Tahir Salahov ulu öndər Heydər Əliyevin hər zaman incəsənətə və sənət adamlarına xüsusi qayğı ilə yanaşdığını bildirdi, onun bu sahə ilə bağlı çıxışlarının bütün incəsənət xadimlərində xoş təəssürat yaratdığını vurğulayaraq qeyd etdi: "Ulu öndərin həssaslığı, mərdliyi məni heyrətləndirirdi. Belə bir şəxsiyyətlə işləmək, görüşmək mənim üçün böyük xoşbəxtlik idi". Tahir Salahov Prezident İlham Əliyevin Azərbaycan mədəniyyətinə və incəsənətinə həmişə böyük qayğı və diqqət göstərdiyini vurğuladı və onun sənətinə verdiyi yüksək qiymətə və mükafata görə dövlət başçısına minnətdarlığını bildirdi.

## "Bakutel 2018": "Ölkəmiz İKT sahəsində də nümunə göstərir"

### Prezident İlham ƏLİYEV:

"Bu gün Azərbaycanda telekommunikasiya üzrə yeni texnologiyaların tətbiqi və xidmət şəbəkəsinin ən müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir"

Artıq üçüncü gündür ki, Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar "Bakutel 2018" sərgisi keçirilir. Sərgidə təqdim edilən innovasiyaların, yeni texnologiya və ideyaların mahiyyətini bircə cümlə ilə belə ifadə etmək olar: Azərbaycan İKT sahəsində yeniliklərə açıq olmaqla yanaşı, dünya innovativ texnologiyalar sisteminə yeniliklər gətirməyə qadir olan gənc mütəxəssislər nəslinin yetişdirilməsinə start vermişdir.

Yüksək texnologiyaların son nailiyyətlərini ziyarətçilərə təqdim edən "Bakutel 2018" sərgisinin sənaye mütəxəssislərinin ənənəvi görüş yerinə və regionun ən böyük İKT tədbirinə çevrilməsi qürur doğurur. "Bakutel 2018" sərgisinin platformasında biznes strukturlarının rəhbərləri, peşəkarlar qlobal məsələlərin həllində, perspektiv layihələrin müzakirəsində ən çətin, mürəkkəb məsələlərin asan, amma intellektual tutumlu həllini ortaya qoyur, optimal qərarlar qəbul edirlər.

Ardı 6-cı səh.

## 4 min insanı rahatlığa qovuşduran layihə

### Qax-Qıpçaq-Ağyazı avtomobil yolu 13 kəndi əhatə edir

Ölkə ərazisində həyata keçirilən tikinti-quruculuq işləri arasında yol infrastrukturunun yenilənməsinə xüsusi qayğı ilə yanaşılır. Dövlət başçısının müvafiq sərəncamları ilə ayrılan vəsaitlər hesabına təkcə paytaxta yaxın kənd və qəsəbələrdə deyil, ən ucqar məntəqələrdə yaşayanlar da yol sarıdan rahatlığa çıxırlar.




Qax rayonunda da son illər istər magistral, istər rayondaxili, istərsə də kəndarası yolların tikintisinə xüsusi diqqət göstərilir. Bu səbəbdən Qax təkcə gözəl təbiəti ilə deyil, həm də abad yolları ilə fərqlənir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "13 №-li Yol İstismarı" MMC-nin baş mühəndisi Rövşən Heydərovla da söhbətimiz bu barədə oldu. O dedi ki, rayonda yol infrastrukturunun yenidən qurulması istiqamətində vacib layihələr icra olunur: "Bunlardan biri də cari ilin oktyabr ayının 28-də Prezident İlham Əliyevin açılışını etdiyi Qax-Qıpçaq-Ağyazı avtomobil yoludur. Yolun uzunluğu ümumilikdə 44,5 kilometrdir və III-IV-V texniki dərəcələrə uyğun olaraq tikilib. Bu, son illər rayonda yol infrastrukturu üzrə icra olunan dördüncü, 2017-ci ildə inşası başa çatdırılmış Zəyəm-Lələli avtomobil yolunun inşasından sonra isə ikinci böyük layihədir".

Ardı 6-cı səh.

## Paşinyan oğlunun əsgəri xidmətindən siyasi məqsədlər üçün istifadə edir

Amma hər dəfə bunu xatırlatmaqla həm də Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini etiraf etmiş olur

Ermənistanda bu ilin may ayında baş vermiş hakimiyyət dəyişikliyindən sonra sıravi ermənilərin Nikol Paşinyandan gözləntiləri çox idi. Çünki 20 illik Köçəryan-Sarkisyan hakimiyyəti ölkəni bu illərdə bir addım da irəli apara bilməmişdi. Səfalət, xaricə miqrasiya, korrupsiya, hakimiyyətdə olan klanların cinayətkarlığı erməni cəmiyyətini xarakterizə edən əsas cizgilər idi.

### Seçkilər ərəfəsində reytinq davası

Elə may ayında baş vermiş mitinqlərdə erməniləri İrəvanın küçələrinə çıxmağa bu səbəblər vadar etmişdi və N.Paşinyan bundan ustalıqla yararlanaraq hakimiyyətə gələ bildi. Aradan ötən aylar uzun zaman sayılmasa da, ölkədə vəziyyəti dəyişdirmək üçün çox iş görmək olardı. Düzdür, Ermənistanın yeni baş naziri xalqın istəyini nəzərə alaraq korrupsiya ilə mübarizə sahəsində bir-iki gediş etdi ki, bunlar da epizodik idi. Belə ki, N.Paşinyanın ilk addımları ölkədə vəziyyəti yaxşılaşdırmağa deyil, əvvəlki hakimiyyətin təmsilçilərindən qisas almağa yönəlmişdi. Amma o, qisasçılıq planlarını axıra kimi reallaşdıra bilmədi. Üstəlik, ölkəsini istər beynəlxalq səviyyələrdə, istərsə də regional müstəvidə daha da gözdən saldı.

Ardı 8-ci səh.

## Finlandiya Respublikasının Prezidenti zati-aliləri cənab Sauli Niinistöyə

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2018-ci il*

## F.S.Abdullayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə Fərhad Sahib oğlu Abdullayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2018-ci il*

## Ş.B.Alxasovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şair Balaşərif oğlu Alxasov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2018-ci il*

## Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsi işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Cəfərov Nazim Kazım oğlu
Rüstəmov Rəşad Keykavuz oğlu
Səfərov Rizvan Ziyanur oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2018-ci il*

## Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsi işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Həsənova Sahibə Məzahir qızı
Qasımov İsa Vəli oğlu
Mehyəddinov Ənvər Əlistan oğlu
Məmmədova Firuzə Novruz qızı
Pirmətov Fərhad Veysəl oğlu
Vəlibəyli Sevinc Mürsəl qızı

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Məmmədov Novruz Qulu oğlu
Naibov Vidadi Vaqif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2018-ci il*

## A.Ş.Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Ağa-Bala Şamxal oğlu Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2018-ci il*

# Azərbaycanla Avstriyanın ikitərəfli münasibətləri uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Bernd Aleksandr Bayerl fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Bernd Aleksandr Bayerl etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı Azərbaycanla Avstriya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin önəminə toxunan Prezident İlham Əliyev özünün Avstriya Respublikasına, Avstriyanın Federal Prezidenti Haynts Fişerin isə Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edən dövlət başçısı iqtisadi sahədə, o cümlədən ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanda uğurla fəaliyyət göstərən Avstriya şirkətlərinin sayının artdığını vurğuladı. Dövlət başçısı Bernd Aleksandr Bayerlin diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsun salamlarını və Avstriya hökumətinin ən xoş arzularını dövlət başçısına çatdırdı. O, Bakıda diplomatik fəaliyyətə başlamasından məmnunluq hissi keçirdiyini qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi və birinci xanım Mehriban Əliyevanın fəal iştirakı ilə Bakıda yüksək zövqlə həyata keçirilən abadlıq və quruculuq işlərinin ona dərin təəssürat bağışladığını bildirdi. Bernd Aleksandr Bayerl səfir fəaliyyəti dövründə əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Dövlət başçısı Avstriyanın Federal Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Avstriyanın Federal Kanslerinə və Avstriya hökumətinə çatdırmağı xahiş etdi.

# Azərbaycanla Koreyanın çox yaxşı əlaqələri mövcuddur





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Kim Tonq Op fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Kim Tonq Op etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı ölkələrimiz arasında çox yaxşı əlaqələrin mövcud olduğunu və birgə səylərlə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin və ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Koreya Respublikasına dövlət səfərini məmnunluqla xatırladı və bu səfərin ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı. Dövlət başçısı Azərbaycanda bir sıra Koreya şirkətlərinin sənaye, nəqliyyatın idarəedilməsi, şəhərsalma, arxitektura və digər sahələrdə uğurlu fəaliyyət göstərdiklərini bildirərək, kənd təsərrüfatı, ekologiya, təhsil, peşə ixtisasartırma kimi sahələrdə də əməkdaşlıq üçün əlverişli imkanların olduğunu dedi. Prezident İlham Əliyev Şərq-Qərb marşrutu üzrə yükdaşımalar istiqamətində Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit potensialını nəzərə alaraq Koreya tərəfinin də bu imkanlardan istifadə edə biləcəyini qeyd etdi.

Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Op Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə etdi. Səfir ölkələrimiz arasında dostluq əlaqələrinin və iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da artırılması üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Prezident Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

## Azərbaycanla Əfqanıstan arasında əməkdaşlıq yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Xeyrullah Spelenay fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Xeyrullah Spelenay etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı Azərbaycanla Əfqanıstan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə dəfələrlə görüşdüyünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi, ölkələrimizin iqtisadi, humanitar və digər sahələrdə də əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyini və Əfqanıstanda xidmət edən Azərbaycan hərbi qulluqçularının sayının artırıldığını qeyd etdi. Əfqanıstanda sülhün və təhlükəsizliyin bütün region üçün vacib olduğunu deyən dövlət başçısı Azərbaycanın "ASAN xidmət" təcrübəsinin bu ölkədə uğurla tətbiq olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə yaradılmış müasir nəqliyyat infrastrukturu imkanlarına toxunaraq, Əfqanıstanın da Şərq-Qərb marşrutu üzrə Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə birləşdirən dəmir yolu layihələrindən faydalana biləcəyini bildirdi.

Səfir Xeyrullah Spelenay Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olduğunu qeyd edən səfir Azərbaycanla Əfqanıstan arasında ənənəvi dostluğun daha da inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı. Səfir Azərbaycanın Əfqanıstanda sülhə və təhlükəsizliyə verdiyi töhfəsinə və ikitərəfli əsasda ölkəsinə müxtəlif sahələrdə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlu inkişaf yolu keçdiyini qeyd edərək, ölkəmizin inkişaf təcrübəsinin Əfqanıstan üçün xüsusilə vacib olduğunu dedi. Xeyrullah Spelenay Əfqanıstanın Şərq-Qərb marşrutu üzrə Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək yükdaşımaların həyata keçirilməsində ölkəsinin maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı Prezident Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

## Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyində olub, ABŞ-ın 41-ci Prezidenti Corc Buşun vəfatı ilə əlaqədar başsağlığı verib






Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinə gələrək ABŞ-ın 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki müvəqqəti işlər vəkili Vilyam Gill Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill ilə söhbət etdi və ona başsağlığı verdi. Dövlətimizin başçısı mərhum Prezident Corc Buşun Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin yaradılmasında və inkişafında rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev mərhum Prezident Corc Buşun ulu öndər Heydər Əliyevlə yaxın münasibətlərini, vaxtilə onun Heydər Əliyevi öz evində qəbul etməsini xatırladı, bunun çox vacib və unudulmaz bir görüş olduğunu dedi. Ulu öndərin ona göstərilmiş hörmətdən, səmimi görüşdən çox təsirləndiyini bildirdi. Dövlət başçısı 2004-cü ildə keçirilən Afina Yay Olimpiya Oyunlarının açılış mərasimi ilə əlaqədar təşkil olunan qəbulda mərhum Corc Buşla görüşdüyünü və onunla söhbət etdiyini yada saldı.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill Prezident İlham Əliyevin səfirliyə gəlməsindən böyük şərəf duyduğunu bildirdi. O qeyd etdi ki, Corc Buş Azərbaycanın müstəqilliyini tanıyan və ölkəmizlə diplomatik münasibətlər quran Amerika Birləşmiş Ştatlarının Prezidenti kimi ölkələrimiz arasında güclü münasibətlərin təməlini qoyub.

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu) 162-1-ci maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2. Bu məcəllənin 162-1.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda, habelə ödəməkdən yayındırılmış vergiləri, işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1306-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1306-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

# "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775) aşağıdakı dəyişikliklər edilsin:

1. 5.2-ci maddəyə "təsisçi (bir neçə təsisçi olduqda isə bütün təsisçilər)" sözlərindən sonra ", qanuni təmsilçi (qanuni təmsilçilər)" sözləri əlavə edilsin və həmin maddədə "onun (onların)" sözləri "onların" sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 5.3.2-2-ci maddə əlavə edilsin:

"5.3.2-2. publik hüquqi şəxsin və kommersiya qurumunun hüquqi ünvanına (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerə) dair məlumat;".

3. 5.4.5-ci maddədə "qurumun" sözü "qeyri-kommersiya qurumunun" sözləri ilə əvəz edilsin.

4. 5.4.6-cı maddədən "təyin edildiyi halda, onun" sözləri çıxarılsın.

5. 5-1.1-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Elektron dövlət qeydiyyatı zamanı təsisçi (təsisçilər) və qanuni təmsilçi (qanuni təmsilçilər) eyni şəxs olmadıqda, ərizə həm təsisçi (təsisçilər), həm də qanuni təmsilçi (qanuni təmsilçilər) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilməlidir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1303-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1303-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

# "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461; 2007, № 5, maddə 436, № 11, maddə 1053; 2008, № 5, maddə 348; 2009, № 12, maddə 948; 2011, № 7, maddə 591; 2017, № 10, maddə 1773) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.0.2-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı sənədsiz adlı qiymətli kağız formasında rəsmiləşdirilir;";

**1.2.** Aşağıdakı məzmunda 1.0.3-1-ci maddə əlavə edilsin:

"1.0.3-1. daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının mülkiyyətçisi - ipoteka kağızının elektron sistemində (bundan sonra - elektron sistem) ipoteka kağızına mülkiyyət hüququ rəsmiləşdirilmiş şəxsdir;";

**1.3.** 1.0.5-ci maddədə "qanuni sahibidir" sözlərindən sonra "(mülkiyyətçisidir)" sözü əlavə edilsin;

**1.4.** 11.4-cü maddədə hər iki halda "verilməsi" sözündən sonra "və ya rəsmiləşdirilməsi" sözləri əlavə edilsin;

**1.5.** 12-ci maddə üzrə:

**1.5.1.** aşağıdakı məzmunda 12.4-1-ci və 12.7-1-ci maddələr əlavə edilsin:

"12.4-1. Daşınmaz əmlak üzərində ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə, dövlət qeydiyyatı orqanı elektron sistem vasitəsilə ipoteka kağızı haqqında məlumatları əldə edir.

12.7-1. Daşınmaz əmlak üzərində ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə, ipoteka kağızında dövlət qeydiyyatını aparan orqanın adı, qeydiyyat anı (tarixi və saatı) və nömrəsi göstərilməklə, qeydiyyat orqanının səlahiyyətli şəxsinin elektron imzası ilə imzalanır və ipoteka saxlayana və ipoteka qoyana elektron sistem vasitəsilə bildiriş göndərilir.";

**1.5.2.** 12.8-ci maddənin ikinci cümləsinə "ipoteka kağızının surəti" sözlərindən sonra "(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.6.** 14.5-ci maddədə "ipoteka kağızı üzərində" sözləri "ipoteka kağızında" sözləri ilə əvəz edilsin;

**1.7.** 17-ci maddə üzrə:

**1.7.1.** 17.1-ci maddənin birinci cümləsində "verilə bilər" sözləri "verilə və ya rəsmiləşdirilə bilər" sözləri ilə əvəz edilsin;

**1.7.2.** aşağıdakı məzmunda 17.3-1-ci maddə əlavə edilsin:

"17.3-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı elektron sistemdə elektron qaydada bu qanunun 17.4-cü maddəsi ilə müəyyən edilmiş şəxs tərəfindən tərtib edilir və elektron sistem bu barədə ipoteka qoyana elektron bildiriş göndərir.";

**1.7.3.** 17.4-cü maddənin ikinci cümləsinə "tərtib edən" sözlərindən sonra "(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.7.4.** aşağıdakı məzmunda 17.4-1-ci maddə əlavə edilsin:

"17.4-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

**1.7.5.** 17.5-ci maddədə "verilməsinə" sözü "verilməsinə və ya rəsmiləşdirilməsinə" sözləri ilə əvəz edilsin;

**1.8.** 18-ci maddə üzrə:

**1.8.1.** 18.1-ci maddəyə "ilkin ipoteka saxlayana verilərkən" sözlərindən sonra "və ya ilkin ipoteka saxlayanın adına rəsmiləşdirilərkən," sözləri əlavə edilsin;

**1.8.2.** 18.1.11-ci maddəyə "verildiyi" sözündən sonra "və ya rəsmiləşdirildiyi" sözləri əlavə edilsin;

**1.8.3.** 18.2-ci maddəyə "başqa şəxslərə verilməsini" sözlərindən sonra "və ya başqa şəxslərin adına rəsmiləşdirilməsini" sözləri əlavə edilsin;

**1.8.4.** aşağıdakı məzmunda 18.3-1-ci maddə əlavə edilsin:

"18.3-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının forması elektron sistemdə müəyyən edilir. Elektron sistemin inzibatçılığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.";

**1.8.5.** 18.4-cü maddənin birinci cümləsinə "verilməsini" sözündən sonra "və ya rəsmiləşdirilməsini" sözləri əlavə edilsin;

**1.9.** aşağıdakı məzmunda 19.1-1-ci maddə əlavə edilsin:

"19.1-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

**1.10.** aşağıdakı məzmunda 20.1-1-ci və 20.2-1-ci maddələr əlavə edilsin:

"20.1-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqların verilməsi elektron sistemdə ipoteka kağızında digər şəxsin xeyrinə elektron imza ilə verilmə qeydinin (indossamentin) edilməsi və bu şəxsə elektron sistemdə bildiriş göndərilməsi yolu ilə həyata keçirilir.

20.2-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqlar başqa şəxsin adına rəsmiləşdirildikdə, ipoteka müqaviləsi həmin şəxsə təqdim edilir və həmin şəxs ipoteka müqaviləsi üzrə ipoteka saxlayanın bütün hüquq və vəzifələrini əldə edir.";

**1.11.** Aşağıdakı məzmunda 21.1-1-ci, 21.2-1-ci və 21.5-1-ci maddələr əlavə edilsin:

"21.1-1. Daşınmaz əmlaka münasibətdə ipoteka saxlayan elektron sistemdə ipoteka kağızında əsas öhdəliyin icrası barədə qeydlər aparmalıdır. Həmin qeydlər barədə ipoteka qoyana elektron sistem vasitəsilə bildiriş göndərilməlidir.

21.2-1. Elektron sistemdə daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızında əsas öhdəliyin qismən icrası barədə qeydin və ya başqa cür təsdiqin olması göstərir ki, bu öhdəlik və ya onun müvafiq hissəsi icra edilmişdir. Elektron sistemdə ipoteka kağızına xitam verilməsi əsas öhdəliyin yerinə yetirilməsini təsdiq edir.

21.5-1. Bu qanuna uyğun olaraq daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızına xitam verildikdə, ipotekanın dövlət qeydiyyatını aparan orqan müvafiq reyestrdə qeydlər aparmalıdır.";

**1.12.** 23-cü maddənin mətni 23.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 23.2-ci maddə əlavə edilsin:

"23.2. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızına elektron sistemdə ipoteka saxlayan tərəfindən könüllü olaraq və ya bu qanunun 48-ci maddəsində nəzərdə tutulmuş hallarda xitam verilir.";

**1.13.** 35.1.2-ci, 36.2.3-cü və 38.1-ci maddələrə "verildiyi" sözündən sonra "və ya rəsmiləşdirildiyi" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** Bu qanun qüvvəyə mindiyi tarixədək dövlət qeydiyyatına alınmış daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı öz hüquqi qüvvəsini saxlayır.

**2.2.** "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.3-1-ci maddəsində nəzərdə tutulan elektron sistem fəaliyyətə başlayana qədər daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının dövlət qeydiyyatı bu qanun qüvvəyə mindiyi tarixədək "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1298-VQD nömrəli Qanununun tətbiqi və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 iyun tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1298-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-1-ci maddəsinə uyğun olaraq daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.4. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə həmin qanunun 1.0.3-1-ci maddəsində nəzərdə tutulan elektron sistemin fəaliyyətə başlamasının təmin edilməsi ilə bağlı tədbirlər görsün;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 iyun tarixli 252 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 489) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-1-ci maddəsində, 18.3-1-ci maddəsinin ikinci cümləsində və 19.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 18.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin qanunun 17.4-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin qanunun 18.3-1-ci maddəsinin ikinci cümləsində və 19.1-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 327, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2017, № 5, maddə 769, № 12 (I kitab), maddə 2332) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.24-1-ci bəndə "xaricdə" sözündən əvvəl "tabeliyində olan qurum vasitəsilə" sözləri əlavə edilsin.

2. 14.3-cü bəndə "qurumlarının" sözündən sonra "("Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanı ilə müəyyən edilmiş hal istisna olmaqla)" sözləri əlavə edilsin.

3. 14.4-cü bəndə "tabeliyində" sözündən əvvəl "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanı ilə müəyyən edilmiş hal istisna olmaqla," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

# Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı monitorinqin nəticələri açıqlanıb

Dekabrın 5-də keçirilən konfransda "Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması" layihəsi çərçivəsində Milli Televiziya və Radio Şurası (MTRŞ) və Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının mütəxəssisləri tərəfindən teleradio yayımçılarının ədəbi dil normalarına riayət edilməsi ilə bağlı 2018-ci ilin avqust və sentyabr aylarında aparılmış monitorinqin nəticələri açıqlanıb.




AZƏRTAC xəbər verir ki, Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli hazırda Azərbaycan dilinin inkişafı üçün hərtərəfli imkan yaradıldığını qeyd edib. Bildirib ki, vaxtilə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qəbul olunması dilimizə olan diqqətin və qayğının göstəricisidir. Prezident İlham Əliyev də Azərbaycan dilinin saflığına böyük önəm verir. "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman buna bariz nümunədir.

Nuşirəvan Məhərrəmli qeyd edib ki, Milli Televiziya və Radio Şurası teleradio məkanında dövlət dilimizin saflığının qorunmasına xüsusi diqqət yetirir. Vaxtaşırı təşkil olunan bu cür monitorinqlər ümumi işimizə böyük fayda verir. Teleradiolarda ədəbi dillə bağlı vəziyyətin heç də ürəkaçan olmadığını, jarqonların və dilimizə yad sözlərin işləndiyini deyən MTRŞ sədri son vaxtlar mövcud nöqsanların aradan qaldırılması üçün müəyyən iş aparıldığını diqqətə çatdırıb. O deyib ki, televiziya rəhbərləri əməkdaşları işə götürərkən onların Azərbaycan dili üzrə biliklərini yoxlamalı, aparıcılar tərəfindən dil normaları qorunmalıdır. Dil nöqsanlarına reklamlarda və tibbi proqramlarda daha çox rast gəlinir. Teleradionun cəmiyyətə böyük təsiri nəzərə alınmalı, onların dili hamıya nümunə olmalıdır.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, ana dili xalqın özünüqoruma instinktini gücləndirən, onu səfərbər edən və birləşdirən, həmçinin bir toplumu digərlərindən fərqləndirən ən etibarlı vasitədir. Odur ki, hər bir dövlət öz dilinin saflığının qorunması, inkişafı və zənginləşməsinə xüsusi qayğı göstərməlidir.

"Ana dilimiz azərbaycançılıq ideologiyasının da mühüm elementi, onun dual funksiya daşıyan siyasi və sosial-mədəni dayağıdır. Azərbaycan dili həm müstəqil dövlət kimi getdikcə güclənən ölkəmizdə, həm də dünyada yaşayan çoxmilyonlu soydaşlarımızın ünsiyyət vasitəsidir. Bu dil nə qədər saf və zəngin olarsa, mənəvi varlığımızı dolğun ifadə edərsə, milli birlik də bir o qədər möhkəm və sarsılmaz olar", - deyən Prezidentin köməkçisi qeyd edib ki, dövlət dili rəngarəng etnik və konfessional tərkibə malik müstəqil Azərbaycanın bütün vətəndaşlarının ürəkdən qəbul etdiyi və birləşdirici rol oynayan nadir mədəni-sosial fenomendir. Dövlət dili respublikamızda bərqərar olmuş milli həmrəyliklə cəmiyyətimiz üçün xarakterik olan multikulturalizmin vəhdətini təmin etməyə, azərbaycançılıq məfkurəsinin əsas məqsədlərindən birinə çatmağa imkan verir. Məhz bu amillər bizdən dövlət dilinin istifadəsinə və inkişafına daim həssaslıqla yanaşmağı tələb edir.

Azərbaycan dilinin keçdiyi inkişaf tarixindən danışan Əli Həsənov deyib ki, orta əsrlərdən başlayaraq Azərbaycan dili bizim yaşadığımız coğrafiyada və Avrasiyanın böyük bir geosiyasi məkanında yüksək hüquqi-siyasi status qazanaraq mərkəzləşmiş Səfəvilər dövlətinin rəsmi dili olub. Sonrakı dövrdə də Azərbaycan dövlətçiliyinin ayrı-ayrı formaları çərçivəsində bu dil öz hüquqi-siyasi statusunu həmişə qoruyub saxlayıb.

Prezidentin köməkçisi ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin xalqımızın ictimai-siyasi və mənəvi həyatında rolunu yüksəltmək istiqamətində gördüyü mühüm işləri xatırladaraq qeyd edib ki, məhz bunun nəticəsində ana dilimiz dövlət dili statusu qazanıb, onun mövqeləri əhəmiyyətli dərəcədə möhkəmlənib. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini hazırda Prezident İlham Əliyev ardıcıl surətdə davam etdirir.

Əli Həsənov bildirib ki, dövlət dilinin tətbiqi dairəsinin genişləndirilməsini və saflığının qorunmasını Prezident İlham Əliyev Azərbaycan dövləti qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edir. Təəssüf ki, kütləvi informasiya vasitələrində, o cümlədən elektron KİV-də dövlət dilinin norma və prinsiplərinə uyğun olmayan söz və ifadələr işlədilir. Bu amilləri nəzərə alaraq Prezident İlham Əliyev 2012-ci ilin mayında "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında sərəncam imzalayıb. Sərəncamda dilimizin müxtəlif səviyyələrdə, xüsusilə KİV-də işlənməsində fonetik, sintaktik və semantik normalardan ciddi yayınmaların olduğu vurğulanıb, Azərbaycan dilinin internet sahəsində tətbiqinə diqqətin artırılmasının vacibliyi xüsusi qeyd edilib.

"Təəssüf ki, 2012-ci ildə imzalanmış Prezident sərəncamında sadalanan nöqsanlara bu gün də təsadüf edilir. Buna görə də Prezident İlham Əliyev dövlət dilinin istifadəsi dairəsinin genişləndirilməsi və saflığının qorunması sahəsində mövcud problemlərin mütəmadi olaraq öyrənilməsi, monitorinqinin aparılması və nöqsanların aradan qaldırılması məqsədilə 2018-ci il noyabrın 1-də yeni fərman imzalayıb. Həmin fərmandan irəli gələn vəzifələrə uyğun olaraq müəyyən monitorinq aparılıb və düşünürəm ki, mütəxəssislərin iştirakı ilə monitorinqin nəticələri peşəkarcasına təhlil edilərək lazımi nəticələr çıxarılacaq", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Azərbaycan dili bizim mənəvi sərvətimizdir, dövlət atributlarımızdan biridir. Azərbaycan dili qədim və zəngin dildir. O, həmçinin əlavə edib ki, Mətbuat Şurası yarandığı gündən dilimizin qorunması məsələsinə xüsusi diqqət yetirir, mətbuatın dili ilə bağlı mütəmadi monitorinq keçirir. Təəssüf ki, mətbuatda da dil ilə bağlı çoxlu nöqsanlar var. Daha çox qrammatik pozuntular qeydə alınır. Qüsurlardan biri də əcnəbi sözlərdən yerli-yersiz istifadədir. Bu nöqsanlar jurnalistin qeyri-peşəkarlığından və dili yaxşı bilməməsindən irəli gəlir.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoylu qeyd edib ki, Azərbaycan dili dünyanın ən zəngin, səlis dillərindən biridir. Hər kəs dilə məsuliyyətlə yanaşmalıdır. Dili insana uşaqlıqdan sevdirmək lazımdır. Belə olan halda Azərbaycan ədəbi dilinin pozulması hallarına rast gəlmərik.

Akademik M.Nağısoylu bildirib ki, son zamanlar cəmiyyətdə rus dilindəki "uje" sözündən istifadə halları artıb. Şadlıq evlərinin adlarının yanına ingilis dilindəki "palace" sözünün yazılması nə məqsəd daşıyır? Bu, bizim dilimizdə "saray" deməkdir, bəs onda niyə saray deyil, "palace" yazırlar? Bizim dilimiz zəngindir, istənilən fikri ifadə etmək üçün kifayət qədər söz ehtiyatımız var.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli deyib ki, teleradio məkanında Azərbaycan ədəbi dilinin normaları xeyli pozulur. Bu gün radiolara qulaq asmaq olmur. Elə jarqonlardan istifadə edirlər ki, bunların efirdə işlədilməsi düzgün deyil. KİVDF mediada ədəbi dil ilə bağlı monitorinqlər aparılmasını dəstəkləyir və növbəti illərdə də bu layihələr davam edəcək.

Sonra monitorinq qrupunun mütəxəssisləri hesabatın nəticələri ilə bağlı açıqlama veriblər. Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müəllimi Mehriban Əlizadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmli, filologiya üzrə fəlsəfə doktorları Təranə Şükürlü, Aynel Məşədiyeva və başqaları qeyd ediblər ki, Azərbaycan dili lüğət ehtiyatı, qrammatik struktur, ifadə planının zənginliyi baxımından mükəmməl olsa da, onun tətbiqi və təkmilləşdirilməsi ilə bağlı bəzi nöqsanlar var. Bu gün televiziyalarda aparıcıların nitqində özünü göstərən bir sıra nöqsanlar, ədəbi dil normalarının pozulması faktları dili qorumaq kimi nəcib missiyanın həyata keçirilməsi işinə ciddi xələl gətirir. Mütəxəssislər diqqətə çatdırıblar ki, müasir cəmiyyətdə informasiyanın dövriyyəsi üçün geniş imkanlar vardır. Çoxçeşidli informasiyalar KİV-də, reklamlarda, sosial şəbəkələrdə və virtual reklamlarda insanların ixtiyarındadır. Bu gün hər bir şəxsin istənilən informasiyanı almaq üçün geniş imkanları var. Buna görə də dil vahidlərindən düzgün istifadə etmək əsas amillərdən biridir.

Daha sonra teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı aparılmış monitorinqin nəticələri açıqlanıb.

Qeyd edilib ki, monitorinqə 6 adda televiziya, 12 adda radio verilişləri cəlb olunub. Həmin verilişlər mövzu istiqamətinə görə təhlil edilib. Məlum olub ki, ədəbi dil normaları dilin bütün səviyyələri üzrə - istər fonetik, istər leksik, istər qrammatik, istərsə də üslubi səviyyədə pozulur.

Monitorinq nəticəsində qeydə alınan 4.633 faktdan 2.765-i fonetik, 511-i leksik, 684-ü üslubi səviyyədə norma pozuntusunun göstəricisidir. Televiziya verilişlərinin monitorinqi zamanı 3.120 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 1.695-i fonetik, 370-i leksik, 492-si qrammatik, 563-ü üslubi səviyyəyə aiddir. Radioların dilinin monitorinqi zamanı 1.017 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 692-si fonetik, 102-si leksik, 144-ü qrammatik, 79-u üslubi səviyyəyə aiddir. Televiziya reklamlarının monitorinqi zamanı 108 norma pozuntusu faktı müəyyənləşdirilib ki, bunlardan 68-i fonetik, 21-i leksik, 15-i qrammatik, 4-ü üslubi səviyyədədir.

Dublyaj filmlərinin və verilişlərinin monitorinqi zamanı 388 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 310-u fonetik, 18-i leksik, 33-ü qrammatik, 27-si üslubi səviyyəyə aiddir.

Konfransda monitorinqin davam etdiriləcəyi diqqətə çatdırılıb.

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən tank hərbi hissəsinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti bir sıra hərbi təyinatlı obyektlərdə olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ön xətdə yerləşən tank hərbi hissəsinin açılışında iştirak edən müdafiə naziri burada yaradılan şəraitlə tanış olub və müvafiq göstərişlər verib.

Yeni tikilən inzibati və xidməti obyektlərə, həmçinin burada saxlanılan hərbi texnikalara baxış keçirən general-polkovnik Zakir Həsənov tank heyətlərinin hazırlığını yoxlayıb və zirehli texnikanın döyüş tətbiqi ilə bağlı tapşırıqlar verib.

Sonda müdafiə naziri tankçılarla birgə nahar edib.

# Azərbaycan və ABŞ Müdafiə nazirlikləri arasında ikitərəfli hərbi məsləhətləşmələr keçirilib

Dekabrın 5-də müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olan Amerika Birləşmiş Ştatları müdafiə nazirinin müavininin müşaviri xanım Laura Kuperin rəhbərlik etdiyi nümayəndə heyəti arasında geniş tərkibli ikitərəfli hərbi məsləhətləşmələr keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan-ABŞ hərbi əlaqələrinin genişləndirilməsi, təhlükəsizlik, hərbi təhsil, Azərbaycan sülhməramlı kontingentinin NATO-nun Əfqanıstanda həyata keçirdiyi qeyri-döyüş missiyasına verdiyi töhfə və digər qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

L.Kuper Əfqanıstanda keçirilən "Qətiyyətli Dəstək" missiyasında sülhməramlılarımızın nümunəvi xidmətini xüsusi qeyd edib.

Söhbət zamanı regiondakı vəziyyət haqqında qonaqlara ətraflı məlumat verilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında nizamlanmasının vacibliyi vurğulanıb.

# Azərbaycanın xarici işlər naziri İtaliyanın Lombardiya regionunun prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Milana səfəri çərçivəsində İtaliyanın Lombardiya regionunun prezidenti Attilio Fontana ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-İtaliya münasibətlərinin səviyyəsindən məmnunluq ifadə olunub. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadi sahədə səmərəli əməkdaşlığın mövcudluğu, bu xüsusda İtaliyanın ölkəmizin əsas ticarət tərəfdaşı olduğu qeyd edilib.

Nazir Elmar Məmmədyarov son illərdə Azərbaycan və İtaliya arasında münasibətlərdə intensivliyin müşahidə olunduğunu, bu xüsusda cari ilin iyul ayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri vaxtı Prezident İlham Əliyevlə apardığı müzakirələri xatırladıb, habelə səfər zamanı dövlət başçılarının iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində operativ qərargahı Milanda yerləşən "Maire Tecnimont" şirkəti tərəfindən inşa edilən polipropilen zavodunun açılışının keçirildiyini bildirib. Azərbaycanın inkişaf strategiyası, prioritet inkişaf istiqamətləri, ölkəmizin təşəbbüsü ilə reallaşan regional və beynəlxalq layihələr, o cümlədən "Cənub qaz dəhlizi" barədə məlumat verən nazir Elmar Məmmədyarov Azərbaycanla daha yaxından tanış olmaq və müxtəlif sahələrdə əməkdaşlıq imkanlarını müzakirə etmək üçün A.Fontananı regiondan olan iqtisadi və elmi-akademik qurumların nümayəndələrinin müşayiəti ilə ölkəmizə səfərə dəvət edib.

# "Made in Azerbaijan" dünyada nüfuzlu brendə çevrilir







*Əvvəli 1-ci səh.*

Həmin tapşırıqların icrası olaraq İqtisadiyyat Nazirliyi tərəfindən Belarusun paytaxtı Minsk şəhərində ümumi sahəsi 529 kvadratmetr olan "Azərbaycan Ticarət Evi" yaradılaraq bu ölkədə dövlət qeydiyyatına alınıb.

## "ASAN" və "ABAD" stendləri

Əlbəttə ki, ticarət evi "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, məhsullarımızın ixracının təşviqi və genişləndirilməsi məqsədilə fəaliyyət göstərir, Belarusda satışını təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir.

Ticarət evində daimi fəaliyyət göstərən sərgidə Azərbaycanın 30 şirkətinin istehsal etdiyi müxtəlif növ məhsullar nümayiş olunur. Burada həmçinin "ASAN" və "ABAD" stendləri də ziyarətçilərə təqdim edilir.

Prezident İlham Əliyevin Belarus səfərində Azərbaycanın bu ölkədə yeni ticarət evlərinin açılması da müzakirə olunan məsələlər arasında olub. Yəni tezliklə Belarusun başqa vilayətlərində də Azərbaycan məhsulları ticarət evlərində satışa çıxarıla bilər.

## Hazırda 4 ölkədə ticarət evlərimiz fəaliyyətdədir

Xaricdə ticarət evlərinin yaradılması həm təbliğat, həm də ixrac imkanlarımızın genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Artıq bir sıra ölkələrdə Azərbaycanın ticarət evləri yaradılıb. Hazırda Belarus, Ukrayna, Latviya və Çində "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Rusiyanın Həştərxan vilayətində yaradılan Azərbaycan İşgüzar Mərkəzinin geniş sərgi zonasında Azərbaycanın 30-dan çox şirkətinin malları nümayiş etdirilir.

İşgüzar Mərkəzin direktoru Regina Fayzulayeva Rusiya mətbuatına açıqlamasında deyib ki, yaxın zamanlarda mərkəzin yanında ticarət evi tikilməsi qərara alınıb. Bu ticarət evində həm topdansatış, həm də pərakəndəsatış əməliyyatları aparılması nəzərdə tutulur.

## Yeni ticarət evimiz bu həftə Polşada açılır

Prezident İlham Əliyevin tapşırığına əsasən, Asiya qitəsi və Körfəz ölkələrində də ticarət evlərinin yaradılması istiqamətində iş aparılır. Azərbaycanın istehsal etdiyi məhsulların ixracında irəliləyişə nail olmaq məqsədilə Aİ və digər MDB ölkələrində də ticarət evlərinin açılması planlaşdırılır.

Ölkəmizin sonuncu ticarət evi Çinin Lucou şəhərində açılıb. Bu gün isə Polşanın paytaxtı Varşavada "Azərbaycan Ticarət Evi" açılacaq. Dövlət başçısının müvafiq tapşırığının icrası olaraq İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış "Azərbaycan Ticarət Evi" brend məhsullarımızın Polşa bazarında daha çox tanıdılmasına, ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, Polşada satışını təşkil edəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək.

Ümumiyyətlə, ticarət evləri ölkəmizin ticarət potensialının artırılması, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, həm də ölkəyə xarici investisiyanın cəlbi baxımından uğurlu addımdır. Artıq ölkəmizin xarici tərəfdaşları da etiraf edirlər ki, Azərbaycanın böyük ixrac potensialı var.

## Gələn il daha 4 ölkədə ticarət evlərimiz yaradılacaq

Beynəlxalq təşkilatlarda üzvlük və xarici qurumlarla əməkdaşlıq ölkəmizin xarici tərəfdaşlar qarşısında möhkəm etibar qazanması, yerli sahibkarların öz məhsullarını maneəsiz və operativ şəkildə xaricə çıxarması üçün vacib şərtdir. Beynəlxalq təşkilatlarda üzv qismində təmsil olunmaqla dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətləndirilməsinə yaxşı imkan yaranır.

Elə bunun səbəbidir ki, Azərbaycanın ticarət tərəfdaşlarının sayı getdikcə artır. Gələn il daha 4 ölkədə "Azərbaycan Ticarət Evi"nin açılması planlaşdırılır. Bunlar Birləşmiş Ərəb Əmirlikləri, Çin (ikinci ticarət evi), Qazaxıstan və Rusiya Federasiyasidir.

Qeyd edək ki, hazırda qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə yaradılan sənaye parkları və sənaye məhəllələrinin rezidentləri məhsullarını "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxarırlar. Bu gün ixrac məhsullarının çeşidinin və həcminin artırılması, ixracın coğrafiyasının genişləndirilməsi prioritet istiqamətlərdəndir və bu istiqamətdə sahibkarlara dövlət tərəfindən hər cür dəstək göstərilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# FİG-in konqresi Bakıda tarixi qərarlar qəbul etdi








Müasir Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdmana və Olimpiya hərəkatına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İdmançılarımız müntəzəm olaraq mötəbər beynəlxalq turnirlərdə iştirak edir, vətənə medallarla qayıdırlar.

Azərbaycanda sevilən idman növlərindən biri də gimnastikadır. Gimnastlarımız mühüm yarışlarda layiqli çıxışları ilə böyük uğurlar qazanıblar. Artıq özünəməxsus məşqçilik ənənələri də formalaşmışdır. Ölkəmizdə müntəzəm olaraq Avropa və dünya çempionatları keçirilir. Hazırda Azərbaycan gimnastika məktəbi dünya idman ictimaiyyəti tərəfindən tanınır. Ölkəmizdə gimnastikanın müxtəlif növləri - bədii gimnastika, kişi və qadın idman gimnastikası, aerobika və akrobatika gimnastikası, tamblinq və batut inkişaf edir.

Qazanılan nailiyyətlərdə Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti Mehriban xanım Əliyevanın böyük əməyi olmuşdur. Hazırda AGF mötəbər beynəlxalq yarışların keçirilməsi, Azərbaycanın dünya idmanında layiqli təmsil olunması üçün texniki və təşkilati vəzifələri yerinə yetirməyi bacaran peşəkar mütəxəssislərdən ibarət bir komandadır. Təsadüfi deyil ki, bu günlərdə Beynəlxalq Gimnastika Federasiyasının (FİG) 82-ci Konqresi məhz Bakıda keçirilmiş və tədbirdə gimnastikanın gələcək inkişafına dair bir sıra vacib qərarlar qəbul olunmuşdur. Bunlardan biri parkur idman növünün FİG ailəsinə daxil olmasıdır. Hələ ötən il beynəlxalq federasiya parkur üzrə texniki komissiyanı formalaşdırmağa başlamışdır. Cari mövsümdə isə bu idman növü üzrə dünya kubokunun bir neçə yarışı keçirilmişdir. İndi parkur rəsmən gimnastikanın tərkib hissəsi olmuşdur. Dekabrın 4-5-də paytaxtımızda FİG-in tərkibinə daxil olan federasiyaların iştirakı ilə ilk tanışlıq seminarı keçirilmişdir. Forum iştirakçıları təqdimat mərasimində parkur barədə və onun gələcək inkişaf strategiyası haqqında hərtərəfli məlumatlandırılmışlar.

Konqresin yekunlarına görə, Etika Fondunun yaradılması təsdiq edilmişdir. Fond gimnastikada zorakılığın qarşısının alınması üçün məsuliyyət daşıyacaq. Hələ fevral ayında FİG prezidenti Morinari Vatanabe müstəqil orqan yaratmaq təklifi ilə çıxış etmişdi. Fond fəaliyyətində beynəlxalq federasiyadan asılı olmayacaq və özünü zorakılığın bütün formaları və etik prinsiplərin pozulması ilə mübarizəyə həsr edəcək.

Konqresdə Tokio Olimpiadasından sonra təsnifat yarışlarının keçirilməsi də müzakirə olunmuşdur. Qərara alınmışdır ki, seçmə yarışların keçirilməsi qaydaları Yaponiyada keçiriləcək 2020-ci il Olimpiya Oyunlarından sonra da əvvəlki kimi qalacaq.

Bakı konqresində qəbul olunmuş daha bir qərarla 2022-ci ildə bədii gimnastika üzrə dünya çempionatı Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək. Bu tədbir sentyabrın 12-18-də baş tutacaq.

Gələn il iyulun 19-21-də isə Rusiyanın paytaxtı Moskva şəhəri yuniorlar arasında bədii gimnastika üzrə dünya birinciliyinə evsahibliyi edəcək.

AGF-nin vitse-prezidenti Altay Həsənov 2019-cu ildə Bakıda bədii gimnastika üzrə dünya çempionatının və gimnastikanın digər növləri üzrə dünya kuboku yarışlarının keçiriləcəyini bildirmişdir. O vurğulamışdır ki, AGF-nin qrafiki sıx olsa da, "biz, həmişəki kimi, hər şeyin öhdəsindən gələcəyik". Ötən il AGF yenə də dünyada ən yaxşı federasiyalardan biri seçilmişdir. Konqresdə qəbul olunmuş qərarlar dünya gimnastikasının inkişafına təkan verəcək.

FİG konqresinin iştirakçıları tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd etmişlər. Avropa Gimnastika İttifaqının (UEG) baş direktoru Liza Vortman bildirmişdir ki, "Azərbaycan həmişə tədbirləri yüksək səviyyədə keçirir və Bakıda bu cür forumları necə keçirməyi öyrənmək olar". O, həmçinin UEG prezidenti Fərid Qayıbovun işini yüksək qiymətləndirərək deyib: "Bu onun yeni vəzifədə birinci fəaliyyət ilidir. F.Qayıbovla və icraiyyə komitəsinin digər üzvləri ilə birgə gələcək planları müzakirə etdik. Bizim çoxlu ideyalarımız var. Onlardan bəzilərini reallaşdırmışıq, qalanları isə, ümid edirəm ki, yaxın gələcəkdə reallaşdırılacaq".

Panamerika Gimnastika İttifaqının prezidenti və FİG İcraiyyə Komitəsinin üzvü Naomi Valenzo da AGF-nin fəaliyyətini yüksək qiymətləndirmişdir: "Heç də bütün federasiyalar bu cür tədbir keçirməyi öhdəsinə götürə bilməz. Konqres çox yaxşı keçdi, vacib məsələlər müzakirə olundu. Bunlardan biri də parkurun gimnastika növləri siyahısına daxil edilməsidir".

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# QDİƏT Parlament Məclisinə sədrlik Azərbaycana keçdi




Xəbər verildiyi kimi, noyabrın 26-dan 29-dək Ermənistanın paytaxtı İrəvanda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Məclisinin 52-ci plenar sessiyası keçirilib. Tədbirdə Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edib. Səfərlə bağlı Eldar Quliyevin fikirlərini öyrəndik. O dedi:

- Beynəlxalq təşkilatların üzvü olmaq, onların işində yaxından iştirak etmək hər bir müstəqil dövlətin qarşıya qoyduğu mühüm hədəflərdir. Azərbaycan Respublikası da dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq aləmə inteqrasiya kursunu seçərək qlobal siyasi proseslərə əsaslı təsir imkanları olan aparıcı təşkilatlarla əməkdaşlığa daim mühüm önəm verib. Beynəlxalq təşkilatlarla əməkdaşlıq əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilən xarici siyasət kursunun mühüm komponentini təşkil edir.

Hazırda Azərbaycan əksər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Bu əməkdaşlıq vasitəsilə ölkəmizlə bağlı həqiqətlər dünyaya çatdırılır, respublikamız beynəlxalq səviyyədə daha yaxından tanınır. Azərbaycanın işində fəal iştirak etdiyi beynəlxalq qurumlardan biri də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatıdır. Bildiyiniz kimi, respublikamız 1992-ci ildən QDİƏT-in təsisçi üzvüdür. Təşkilatın digər üzvləri Türkiyə, Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Ukrayna, Yunanıstan və Ermənistandır.

Azərbaycan QDİƏT çərçivəsində bir sıra prioritet sahələr, o cümlədən ticarət, gömrük, nəqliyyat, enerji, ətraf mühit, informasiya və kommunikasiya, elm və texnologiyalar və s. sahələr üzrə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın inkişaf etdirilməsinə önəm verir. Hazırda respublikamız QDİƏT çərçivəsində iki işçi qrupda (Gömrük məsələləri və Elm və texnologiyalar üzrə işçi qrupları) əlaqələndirici ölkə funksiyalarını yerinə yetirir.

Azərbaycan QDİƏT-in əlaqədar təşkilatlarında da fəal iştirak edir. Məsələn, QDİƏT-in Parlament Məclisi Qara dəniz hövzəsi ölkələrinin ali qanunvericilik orqanları arasında dialoqu təmin edən nüfuzlu beynəlxalq strukturdur. Parlamentarilərin işindən ticarət-iqtisadi və investisiya mübadiləsinin dinamikası, sosial, elmi-texniki və humanitar sahələrdə əlaqələr çox asılıdır.

QDİƏT Parlament Məclisi ildə iki dəfə toplanır. Parlament Məclisinin 51-ci sessiyası bu ilin iyun ayında Albaniyanın paytaxtı Tirana şəhərində keçirilmişdi. Həmin tədbirdə quruma rəhbərlik əlifba sırası ilə Ermənistana keçmişdi. Ona görə 52-ci sessiya Ermənistanda keçirildi. Tədbirdə Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi mən və Milli Məclisin deputatı Əflatun Amaşov iştirak etdik.

## 4 ölkə Ermənistanda medal almaqdan imtina edib

Azərbaycan nümayəndə heyəti İrəvana noyabrın 26-da çatıb. Elə həmin gün QDİƏT Parlament Məclisinin büro və komitələrinin toplantısı keçirilib. Noyabrın 27-də isə QDİƏT Parlament Məclisinin açılışı olub. Bu barədə danışan Eldar Quliyevin sözlərinə görə, gündəliyin birinci məsələsi Parlament Məclisinin yaranmasının 25 illiyi ilə əlaqədar nümayəndə heyətlərinin rəhbərlərinin yubiley medalı ilə təltif olunması idi: "Ermənistan tərəfi Parlament Məclisinə sədrik səlahiyyətlərindən istifadə edərək 25 illik yubiley medalını təqdim etmək barədə qərar qəbul etmişdi. Bununla əlaqədar əvvəlcədən bütün ölkələrin nümayəndə heyətlərinə məlumat vermişdi. Medalların təqdim olunması Parlament Məclisinin açılışında elan edildi. Belə ki, Ermənistan parlamentinin sədri Ara Babloyan giriş nitqindən və gündəliyin təsdiq olunmasından sonra təşkilatın 25 illiyi münasibətilə bütün milli nümayəndə heyətlərinin medallarla təltif olunacağını dedi. Bundan sonra mən söz alaraq təşkilatın 25 illik yubiley medalını İrəvanda, Ermənistan parlamentində, bu ölkənin parlament sədrindən almaqdan imtina etdim".

Qeyd edək ki, Azərbaycandan başqa, 3 üzv-dövlətin nümayəndə heyətləri də medalı almaqdan imtina edib. Eldar Quliyevin sözlərinə görə, ondan sonra Gürcüstan nümayəndə heyətinin üzvü də çıxış edərək medalı almaqdan imtina edib. Səbəb kimi isə nümayəndə heyəti sədrinin tədbirdə iştirak etməməsini göstərib. Türkiyə nümayəndə heyətinin rəhbəri Camal Öztürk də medalı götürməyib. Həmçinin Ukrayna nümayəndə heyəti də medalı qəbul etməyib. Belə ki, müəyyən səbəblərdən İrəvana gələ bilməyən Ukrayna nümayəndə heyətinin müraciət edərək medaldan imtina etdiyi diqqətə çatdırılıb.

Beləliklə, 4 nümayəndə heyəti İrəvanda medal almaqdan imtina edib. "Bundan sonra iclasda sakitlik yarandı. Ermənistan tərəfi pərt vəziyyətə düşmüşdü. Sanki şok yaşayırdılar. İclasda Ermənistan xarici işlər nazirinin müavini də iştirak edirdi. O da belə bir vəziyyətin yaranmasına görə istehzalı halda təşkilatçılara baxırdı. Bir azdan sanki özünə gələn Ermənistan parlamentinin spikeri digər 8 ölkənin nümayəndə heyətinə medalları təqdim etdi" deyə Eldar Quliyev bildirdi.

## 53-cü sessiya Bakıda keçiriləcək

QDİƏT Parlament Məclisinin 52-si sessiyası çərçivəsində hesabatlar dinlənilib, regional iqtisadi əməkdaşlığın inkişafında və möhkəmlənməsində üzv-dövlətlərin parlamentlərinin və həmkarlar ittifaqlarının rolu, həmin ölkələrdə kiçik biznesin və turizmin fəaliyyəti, onların inkişaf perspektivləri mövzularında müzakirələr aparılıb. Eldar Quliyev "Regional iqtisadi əməkdaşlığın inkişafında parlamentlərin rolu" mövzusunda məruzə edib. O, çıxışında iqtisadi və humanitar təhlükəsizlik, informasiya təhlükəsizliyi məsələlərindən, beynəlxalq terrorizmlə, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə tədbirlərindən, regiondakı ekoloji problemlərdən söz açıb. Bildirib ki, region təkcə iqtisadi deyil, ümumilikdə qlobal layihələrin gerçəkləşdiyi məkandır. Eldar Quliyev bu baxımdan Azərbaycanın mövqeyini diqqətə çatdırıb və ölkəmizin adı ilə bağlı olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əhəmiyyətini vurğulayıb, dövlətimizin artan iqtisadi qüdrətinin təzahürü olan nəhəng təşəbbüsləri önə çəkib, xüsusən də TANAP-ın əhəmiyyəti üzərində dayanıb.

Nümayəndə heyətinin üzvü Əflatun Amaşov "Azərbaycan Respublikasında kiçik biznesin inkişafında dövlət dəstəyi" mövzusunda çıxış edib. Azərbaycanda sahibkarlığın inkişafına ciddi önəm verildiyini vurğulayan deputat bu baxımdan diqqəti qeyri-neft sektorunun inkişafına yönəldib.

Sessiya çərçivəsində QDİƏT Parlament Məclisinin Siyasi və hüquqi məsələlər, Mədəniyyət, elm və sosial məsələləri, eləcə də İqtisadi, ekoloji və yüksək texnologiyalar məsələləri üzrə komitələrinin iclasları keçirilib. Eldar Quliyev Siyasi və hüquqi məsələlər, Əflatun Amaşov isə İqtisadi, ekoloji və yüksək texnologiyalar məsələləri üzrə komitələrin iclaslarında çıxış edərək QDİƏT ölkələri arasında əməkdaşlıqdan, Azərbaycanın bu əməkdaşlığa verdiyi töhfədən söz açıblar.

QDİƏT Parlament Məclisinin növbəti gün keçirilən iclasında Parlament Məclisinə sədrliyin Azərbaycana keçməsi barədə qərar qəbul edilib. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrlik əlifba sırası əsasında, rotasiya qaydasına uyğun olaraq 6 ay müddətində həyata keçirilir. Buna görə sədrlik Azərbaycana keçdi. Qaydaya görə, Məclisə sədrliyi ölkənin parlamentinin rəhbəri həyata keçirəcək. Noyabrın 28-dən etibarən QDİƏT Parlament Məclisinin sədri Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədovdur. Növbəti, 53-cü sessiya isə 2019-cu ilin iyununda Bakıda təşkil olunacaq" deyə Eldar Quliyev bildirdi.

## Ermənistan Azərbaycandan azı 30 il geridədir

Deputat Eldar Quliyevlə səfərin görünməyən tərəfləri barədə də söhbətləşdik. Onun sözlərinə görə, Azərbaycan nümayəndə heyəti Ermənistana təyyarə ilə Türkiyədən, bu ölkənin nümayəndə heyəti ilə birlikdə uçub. Sessiya çərçivəsində Ermənistan tərəfi nümayəndə heyətlərinin ölkə ilə tanışlığı məqsədilə müxtəlif ünvanlara səfərlərini təşkil etsə də, Azərbaycan nümayəndə heyəti bundan imtina edib.

Bununla belə, Eldar Quliyev bildirdi ki, müşahidələrə görə, Ermənistan Azərbaycandan azı 30 il geri qalıb. "Sessiya zamanı ermənilərlə təmasımız olmasa da, avtomobildən İrəvanın küçələrini görmək, müşahidə etmək və Bakı ilə müqayisə aparmaq imkanımız oldu. Mən İrəvanda ötən əsrin 80-ci illərində bir neçə dəfə olmuşam. Müşahidələrim göstərdi ki, şəhər dəyişməyib, yəni ara-sıra görünən tikintiləri nəzərə almasaq, bu şəhərdə heç bir inkişafdan söhbət gedə bilməz. Axşam saatlarında küçələrdə çox az avtomobil və tək-tük adam gözə dəyir. Bu da əhalinin sosial durumunun yüksək olmamasının göstəricisidir. Halbuki Bakı küçələri axşam saatlarında olduqca izdihamlıdır" deyə Eldar Quliyev qeyd etdi.

Eldar Quliyev yekunda onu da bildirdi ki, Azərbaycan İrəvanda Ermənistandan sədrliyi təhvil aldı: "Ən böyük arzumuz isə işğal olunmuş torpaqlarımızın azad olunmasıdır. İrəvandakı müşahidələrim göstərdi ki, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq Azərbaycanın işğal edilmiş torpaqlarını Ermənistandan geri alacağı gün uzaqda deyil".

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Təhsil Nazirliyi ilə "Clarivate Analytics" arasında yeni əməkdaşlıq müqaviləsi imzalanıb

## "Web of Science Azerbaijan-2018" mükafatları alimlərimizə təqdim edilib

Dekabrın 5-də Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında əməkdaşlığın yeni mərhələsinə həsr olunmuş mərasim keçirilib.



AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən təhsil naziri Ceyhun Bayramov son illər ali təhsilin davamlı inkişafına nail olunması, universitetlərin beynəlxalq elmi bazalara çıxışının asanlaşdırılması və alimlərin elmi məqalələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmasına dəstək göstərilməsi istiqamətində mühüm addımlar atıldığını bildirib. O, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın elmin inkişafına daha da təkan verəcəyini, ali təhsilin digər komponentləri ilə yanaşı, universitetlərin elmi fəaliyyətinin modernləşdirilməsi baxımından müstəsna rol oynayacağını vurğulayıb.

2015-ci ildə Təhsil Nazirliyi ilə dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan "Clarivate Analytics" (əvvəlki adı "Thomson Reuters") şirkəti arasında əməkdaşlıq sazişinin imzalandığını xatırladan təhsil naziri bildirib ki, nəticədə Azərbaycanın 40 ali təhsil müəssisəsi "Web of Science®" elmi platformasına çıxış əldə edib. "Clarivate Analytics" ilə əməkdaşlığın artıq müsbət nəticələr verdiyini deyən Ceyhun Bayramov diqqətə çatdırıb ki, son 5 ildə Azərbaycan alimlərinin impakt faktorlu jurnallarda çap olunmuş məqalələrinin ölkə üzrə ümumi sayı 74 faiz artıb, ali təhsil müəssisələri üzrə müvafiq göstərici 88 faiz təşkil edib. "Web of Science®" elmi bazasında 2017-ci ildə 1160 elmi tədqiqat işi qeydə alınıb ki, bu da son 25 ildə Azərbaycan üzrə publikasiya sayında rekord göstəricidir. Həmin məqalələrin təxminən 43 faizi ali təhsil müəssisələrinin payına düşüb. "Web of Science®" bazasına daxil olan məqalələrin artım dinamikasına görə Azərbaycan son 3 ildə Cənubi Qafqaz ölkələri arasında davamlı olaraq 1-ci yerdə qərarlaşıb. 2015-ci ildə Azərbaycandan cəmi 2 jurnal "Web of Science®" bazasında indeksləşdirilmişdisə, 2017-ci ildə bu göstərici 7-yə çatıb.

Nazir "Clarivate Analytics" şirkəti ilə əməkdaşlığın növbəti 3 il ərzində davam etdirilməsinə dair qərar qəbul edildiyini bildirib. Həmçinin Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında 2018-2021-ci illəri əhatə edən əməkdaşlıq üzrə Fəaliyyət Planının, ölkəmizin "Web of Science®" bazasında cari durumuna dair şirkət tərəfindən ildə iki dəfə əhatəli hesabatın hazırlanmasını təklif edib.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev "Clarivate Analytics" ilə əməkdaşlığın gələcəkdə də davam etdirilməsi üçün müvafiq addımlar atılmasının vacibliyini vurğulayıb. Azərbaycanda elm və təhsilin inkişafına dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğının göstərildiyini qeyd edən E.Babayev bu sahədə müvafiq sərəncam və fərmanların imzalandığını xatırladıb, ölkəmizə müasir texnologiyaların gətirildiyini və kadr hazırlığına böyük önəm verildiyini söyləyib. Qeyd edilib ki, bütün bunların bəhrəsi özünü elm sahəsində göstərməlidir. Növbəti mərhələ isə bu nəticələrin məhz nüfuzlu jurnallarda nəşr olunması, elmi işlərə olan istinadların verilməsi və bunun sayəsində də beynəlxalq əməkdaşlığın qurulmasıdır.

Elçin Babayev deyib: "Elmi nəticələr o vaxt əhəmiyyətli olur ki, ona müasir dövrün tələblərindən olan innovasiyalar tətbiq olunur və xarici alimlərlə əməkdaşlıq yüksək səviyyədə həyata keçirilir. Təhsil Nazirliyi tərəfindən hər zaman "Clarivate Analytics" şirkəti ilə əməkdaşlıqda qətiyyətli addımlar atılıb".

"Web of Science Azerbaijan-2018" mükafatları barədə məlumat verən icraçı direktor buraya yeni nominasiyaların daxil edildiyini də söyləyib.

"Clarivate Analytics" şirkətinin konsorsium inkişafı üzrə qlobal direktoru İzabel Reiss, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Dilqəm Tağıyev ölkədə elmin inkişafı istiqamətində atılan addımlardan, Azərbaycanda əldə olunan elmi nəticələrin dünyada tanıdılmasının vacibliyindən danışıblar.

Tədbirdə "Clarivate Analytics" tərəfindən "2015-2018-ci illərdə "Web of Science" elmi bazasında Azərbaycan ali təhsil müəssisələri: nəticə və perspektivlər" adlı təqdimat keçirilib.

Sonra Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında 2019-2021-ci illəri əhatə edən əməkdaşlığa dair müqavilə imzalanıb. Müqavilə mövcud əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsini, "Web of Science®" platformasının rusdilli elmi nəşrlər bazasına və ölkə üzrə elmi fəaliyyətin əhatəli təhlilinə imkan verən InCites platformasına çıxışın təmin olunmasını nəzərdə tutur.

Daha sonra "Web of Science Azerbaijan-2018" mükafatları müxtəlif kateqoriya və nominasiyalar üzrə azərbaycanlı alimlərə təqdim edilib.

# Bakıda birinci Xəzər İnnovasiya Konfransı keçirilib

Dekabrın 4-7-də keçirilən “Bakutel-2018” XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransı çərçivəsində birinci Xəzər İnnovasiya Konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransın bundan sonra ənənəvi olaraq hər il “Bakutel” beynəlxalq sərgisi çərçivəsində təşkil olunması nəzərdə tutulur.

Tədbir “Genişzolaqlı bağlantı”, “Süni intellekt”, “Əşyalar interneti”, “Elektron xidmətlər”, “İKT əsaslı startaplar və innovativ sahibkarlıq”, “Dördüncü Sənaye İnqilabı”, “Elmtutumlu istehsalat”, “Kiberhazırlıq” kimi mövzuları əhatə edib.

İKT sektorunun bütün iştirakçıları arasında səmərəli əməkdaşlıq imkanları, həmçinin müvafiq sahə üzrə çağırışların müzakirə olunması məqsədilə regional platforma rolunu oynayacaq Xəzər İnnovasiya Konfransının təsis edilməsi təşəbbüsünü Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi irəli sürüb.

Belə bir təşəbbüsə səbəb Beynəlxalq Telekommunikasiya İttifaqının hesablamalarına əsasən, dünya əhalisinin 52 faizinin və ya 3,7 milyard insanın hələ də internetə çıxışının olmaması, rəqəmli fərqin aradan qaldırılması və inkişaf edən texnologiyaların tətbiqi üçün qurulacaq və ya təkmilləşdiriləcək infrastrukturun həcminin böyük və bahalı olmasıdır.

Xəzər İnnovasiya Konfransında çıxış edən Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə qeyd edib ki, ilk dəfə təşkil olunan Xəzər İnnovasiya Konfransının mövzusu təsadüfi seçilməyib. Çünki dünyanın müxtəlif regionlarında, o cümlədən Xəzər və Qara dəniz regionu ölkələrində yeni elektron xidmətlərin, innovativ həllərin tətbiqi, ilk növbədə, dayanıqlı infrastrukturun qurulması və davamlı inkişaf etdirilməsini şərtləndirir. O qeyd edib ki, bunu nəzərə alaraq, builki konfransın mövzusu “Dayanıqlı İnkişaf naminə Rəqəmsal Bağlantı” kimi müəyyən olunub.

Nazir bildirib ki, simsiz genişzolaqlı şəbəkələrin dinamik inkişafına baxmayaraq, genişzolaqlı sabit şəbəkələr əhəmiyyətini qorumaqdadır: “Bildiyiniz kimi, simsiz genişzolaqlı şəbəkələr hələ də sabit şəbəkələrdən daha az trafik daşıyırlar və adətən daha aşağı sürət və etibarlılıq təklif edirlər. Bundan əlavə, mobil datanın artması faktiki olaraq sabit şəbəkələrə tələbatın artmasına səbəb olur. Elektrik və su təchizatı kimi genişzolaqlı bağlantı infrastrukturu da artıq kritik infrastruktur hesab olunur və Azərbaycan Respublikası hökuməti ölkədə genişzolaqlı infrastrukturun qurulması, mövcud infrastrukturun təkmilləşdirilməsi və dayanıqlığının təmin olunması istiqamətində davamlı addımlar atır, GPON və LTE texnologiyalarının geniş tətbiqini nəzərdə tutan layihələr həyata keçirir”, - deyə nazir vurğulayıb.

Nazir, həmçinin qeyd edib ki, görülən işlər sayəsində Azərbaycanda mobil rabitə abunəçiləri sayı ölkə əhalisinin 106 faizini təşkil edir. Azərbaycan əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir, ev təsərrüfatlarının 68 faizində kompüter mövcuddur. Simsiz genişzolaqlı internet istifadəçilərinin nisbəti 73 faiz təşkil edir.

R.Quluzadə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”nə əsasən, 2020-ci ilədək 700-800 MHz tezlik diapazonunun LTE xidmətləri üçün ayrılmasının nəzərdə tutulduğunu bildirib. “Hazırda bununla bağlı tərəfimizdən texniki hazırlıq işləri həyata keçirilir, həmçinin beynəlxalq təcrübəyə əsasən radiotezliklərin hərraclar vasitəsilə ayrılması üçün qanunvericiliyə dəyişikliklər üzrə təkliflər paketi hazırlanır”.

Nazir deyib ki, aşağı tezlik diapazonunun auksion əsasında LTE xidmətləri üçün ayrılması telekommunikasiya operatorlarının investisiya xərclərini azaldacaq, telekommunikasiya bazarının daha da liberallaşmasına və LTE texnologiyalarının geniş tətbiqinə şərait yaradacaq.

O, eyni zamanda vurğulayıb ki, Azərbaycan Respublikası hökuməti region ölkələrində, xüsusilə açıq dənizlərə çıxışı olmayan ölkələrdə genişzolaqlı infrastrukturun inkişafına töhfə verəcək layihələrin təşəbbüskarı qismində çıxış edir.

“Bu məqamda mən təşəbbüskarı olduğumuz və BMT Baş Məclisinin 3 qətnaməsi ilə dəstəklənən “Trans-Avrasiya Super İnformasiya Magistralı”, qısaca TASİM layihəsinə xüsusi toxunmaq istərdim. TASİM layihəsinin məqsədi əsasən Qərbi Avropadan Şərqi Asiyaya qədər Avrasiya ölkələrini əhatə edən transmilli fiber-optik xəttin çəkilməsidir. Layihə Frankfurt şəhərindən Honkonq şəhərinə istiqamətlənən əsas tranzit xəttinin qurulmasını nəzərdə tutur. Bu xətt Avropanın və Asiyanın ən böyük informasiya mübadiləsi mərkəzlərini birləşdirəcək. TASİM layihəsinin reallaşdırılması Avrasiyada, xüsusilə də açıq dənizlərə çıxışı olmayan ölkələrdə rəqəmsal uçurumun aradan qaldırılmasına xidmət edəcək. Əminəm ki, TASİM və Xəzər İnnovasiya Konfransı kimi təşəbbüslər region ölkələrində rəqəmsal həllərin inkişafına və regional əməkdaşlığa öz töhfəsini verəcək”, - deyə nazir əlavə edib.

Əfqanıstanın rabitə və informasiya texnologiyaları naziri Şahzad Gul Ayrobi bildirib ki, hazırda Avrasiyada bir çox ölkənin açıq dənizə və mövcud olan genişzolaqlı internet magistrallarına çıxışı yoxdur. Bu baxımdan Xəzər İnnovasiya Konfransı rəqəmsal bağlantı həllərinin biznes çevrələrinə və vətəndaşlara verəcəyi töhfələr baxımından böyük əhəmiyyətə malikdir. Konfrans İKT sektorunda qlobal çağırışların və yeni nailiyyətlərin müzakirəsi üçün əlverişli platformadır. O, dünyada Azərbaycan brendi kimi tanınan “ASAN xidmət”in əhəmiyyəti və üstünlüklərindən də danışıb.

Xəzər İnnovasiya Konfransının Şərq və Qərb arasında körpü rolunu oynadığını deyən İranın rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi bildirib ki, Bakıda keçirilən bu əhəmiyyətli konfrans regionun potensialını ortaya çıxaracaq. Azərbaycan, Türkiyə, Rusiya və İran arasında İKT sahəsində əməkdaşlıq əlaqələrinin qurulması, innovasiya tətbiqlərinin genişləndirilməsi qlobal əhəmiyyət daşıyır. Bu dörd dövlət regionda startapların təşkil edilməsində də mühüm addımlar ata bilər.

Onun sözlərinə görə, İKT sənayesində innovasiyaların tətbiqi dinamik inkişaf üçün yeni imkanlar açır. Bu gün startaplar dünyanın, eləcə də İranın innovativ inkişafının əsas konturlarını müəyyən edir. İranda startapçılar tərəfindən 10 mindən çox tətbiq yaradılıb. “Biz Azərbaycanla mütəmadi olaraq startaplara zəruri dəstəyin göstərilməsi sahəsində birgə əməkdaşlığı müzakirə edirik. Bugünkü tədbirə və Xəzər İnnovasiyalar Konfransının təşəbbüsünə görə təşəkkür edirəm, konfransın davamlı olacağına ümid edirəm və qeyd etmək istəyirəm ki, İran bu beynəlxalq tədbirin işinə dəstək verəcək”.

Nazir qeyd edib ki, “Bakutel” sərgisi texnologiya sahəsində iqtisadi münasibətlərin inkişafına, qarşılıqlı əməkdaşlıq və dostluq əlaqələrinin şirkətlər üçün də yeni müstəviyə çıxarılmasına təkan verən sərgidir.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan isə deyib ki, ölkəsi İKT sahəsində mühüm nailiyyətlər əldə edib: “Bu konfrans regionda və qlobal miqyasda İKT sektorunun iştirakçısı olan şirkətlərin təcrübə mübadiləsi aparmalarına töhfə verəcək. Həmçinin bu platforma yeni əməkdaşlıqlara vəsilə olacaq”.

Nazir “Bakutel-2018” sərgisində İKT sektoru üzrə təqdim olunan ən son yenilikləri yüksək qiymətləndirib. O bildirib ki, Türkiyə Azərbaycanda bütün sahələrdəki inkişafı təqdir edir və eləcə də İKT sektorundakı inkişafı yüksək qiymətləndirir.

“Huawei Technologies” şirkətinin vitse-prezidenti Qreqori Foks öz çıxışında bildirib ki, bu gün bütün dünyada sənaye rəqəmsallaşdırılır. Təşkilatlar, dövlət strukturları bu rəqəmsallaşdırılmanın əsas iştirakçılarıdır. Onun sözlərinə görə, müşahidələr göstərir ki, 2020-ci ilədək dünya iqtisadiyyatı sürətlə inkişaf edəcək.

Regional platforma rolunu oynayan konfrans işini “Dayanıqlı inkişafın təmin edilməsində genişzolaqlı bağlantının rolu: çağırışlar və imkanlar” və “Genişzolaqlı mobil internetin gələcəyi: 5G və sonrası” mövzularında plenar sessiyalarla davam etdirib. Sessiyalarda İKT sektorunun iştirakçıları arasında səmərəli əməkdaşlıq imkanları, həmçinin müvafiq sahə üzrə çağırışlar müzakirə olunub.

Sessiyalarda Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean Regionu üzrə iqtisadi və sosial Komissiyasında İnformasiya və Kommunikasiya texnologiyaları və inkişaf bölməsinin rəhbəri Atsuko Okuda, “Cisko Systems” şirkətinin ölkələrin rəqəmsallaşdırılması üzrə Akselerasiya Proqramının qlobal əməliyyatlar direktoru Enriko Albertin, “Türk Telekom” International şirkətinin baş icraçı direktoru Mehmet Toros, “Türkcell” şirkətinin baş icraçı direktoru Kaan Terzioğlu və digərləri mövzu ətrafında fikir mübadiləsi aparıblar.

Məlumat üçün bildirək ki, Beynəlxalq Telekommunikasiya İttifaqının təxminlərinə görə, növbəti 1.5 milyard insanın bağlantı ilə təmin edilməsi təqribən 450 milyard ABŞ dolları həcmində vəsait tələb edir.

GSM Assosiasiyasının təxminlərinə əsasən isə, 2020-ci ilədək dünya əhalisinin 4.1 milyardı LTE xidmətlərindən istifadə edəcək. Həmçinin ehtimallara görə, 2021-ci ildə “5G” xidmətlərindən istifadə edənlərin sayı 740 milyona çatacaq.

Bütün bunlarla yanaşı, Avrasiyanın bir çox ölkəsinin açıq dənizlərə və mövcud olan genişzolaqlı internet magistrallarına çıxışının olmadığı bir şəraitdə rəqəmli bağlantı həlləri biznes dairələrinə və vətəndaşlara verəcəyi töhfələr baxımından çox böyük əhəmiyyətə malikdir.

Xəzər İnnovasiya Konfransı da məhz rəqəmli fərqliliyin azaldılması, xarici investisiyalar üçün rəqəmli bağlantı imkanlarının yenidən nəzərdən keçirilməsi və biznes səmərəliliyinin təmin edilməsi məqsədilə hökumət nümayəndələrini, sənaye liderlərini, tənzimləyici qurumların və beynəlxalq təşkilatların rəsmilərini, o cümlədən regionun ən böyük telekom və peyk operatorlarının rəhbərlərini bir araya gətirib.

# “Genişzolaqlı mobil internetin gələcəyi: 5G və sonrası”

## “Azercell” şirkətinin prezidenti “Bakutel” sərgisi çərçivəsində NRYT Nazirliyinin təşkil etdiyi Xəzər İnnovasiya Konfransında iştirak edib

Ölkəmizdə “Bakutel-2018” 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransı çərçivəsində bu il ilk dəfə olaraq Xəzər İnnovasiya Konfransı keçirilib.




Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə “Dayanıqlı İnkişaf naminə Rəqəmsal Bağlantı” mövzusunda keçirilən konfransda rəqəmli fərqliliyin azaldılması, xarici investisiyalar üçün rəqəmli bağlantı imkanlarının yenidən nəzərdən keçirilməsi və biznes səmərəliliyinin təmin edilməsi məqsədilə hökumət nümayəndələrini, sənaye liderlərini, tənzimləyici qurumların və beynəlxalq təşkilatların rəsmilərini, o cümlədən regionun ən böyük telekom və peyk operatorlarının rəhbərlərini bir araya gətirib.

İKT sektorunun bütün iştirakçıları arasında səmərəli əməkdaşlıq imkanları, həmçinin müvafiq sahə üzrə çağırışların müzakirə olunması məqsədilə təşkil olunan konfransda “Azercell Telekom” MMC-nin prezidenti Vahid Mürsəliyev məruzəçi qismində çıxış edib. Şirkət prezidenti ölkəmizdə mühüm texnoloji tədbir hesab edilən “Bakutel” Beynəlxalq Sərgisi çərçivəsində təşkil olunan Xəzər İnnovasiya Konfransının əhəmiyyətini vurğulayaraq tədbirin əsas təşkilatçısı kimi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə öz minnətdarlığını bildirib.

“Genişzolaqlı mobil internetin gələcəyi: 5G və sonrası” mövzusunda çıxış edən Vahid Mürsəliyev “Azercell”in LTE şəbəkəsi ilə bağlı ən son nailiyyətləri haqqında konfrans iştirakçılarına məlumat verib. “Hazırda strategiyamızın əsas məqsədi hər bir yerdə mobil rabitənin keyfiyyətini yaxşılaşdırmaq, regionlarda 4G şəbəkəsini genişləndirmək, ən son xidmətlər və yeni biznes həllərini təqdim etmək, yüksəksürətli interneti dəstəkləyən sərfəli mobil cihazları bazara çıxarmaqdır. Bütün bunlar mobil texnologiya vasitəsilə abonentlərimizin gündəlik həyatını və işgüzar fəaliyyətini asanlaşdırmağa xidmət edəcəkdir” - deyə V.Mürsəliyev vurğulayıb. İlin əvvəlindən texnoloji layihələrə və şəbəkəyə böyük yatırımların edildiyini bildirən şirkət prezidenti 2018-ci ilin əvvəlindən “Azercell”in bazar payının 1% artaraq ümumilikdə 49%-ə çatdığını, “Azercell”in şəbəkəyə yeni qoşulan abunəçilərin və cari ildə mobil internet istifadəçilərinin sayına görə də lider olduğunu qeyd edib.

Şirkət prezidenti 5G şəbəkəsinin perspektivləri haqqında da konfrans iştirakçıları ilə öz fikirlərini bölüşüb. Hazırda dünyada mobil texnologiya bazarında böyük dəyişikliklərin baş verdiyindən, infrastruktur layihələrin həyata keçirildiyindən, yeni standart naqilsiz rabitədə daha geniş zolaq, yüksək sürət, internetə rahat çıxış və əhatə dairəsi, enerjidən daha səmərəli istifadə və ən önəmlisi böyük əhəmiyyətə malik M2M və IoT (Əşyaların İnterneti) əlavələrdə istifadə olunan ultra-aşağı ləngimə (4G ilə müqayisədə 30 dəfə sərfəli) kimi müsbət yeniliklər vəd etdiyindən söz açıb. Yaxın vaxtlarda Virtual Reallıq və Genişləndirilmiş Reallıq kimi məlumatac texnologiyaların istifadəyə veriləcəyi faktına əsaslanaraq, şəbəkələrin böyük həcmdə məlumatları ötürmək qabiliyyətinə malik olmalı olduğunu vurğulayıb.

Vahid Mürsəliyev bildirib ki, 5G şəbəkəsi bazarda öz mövqeyini birdən-birə deyil, müəyyən müddət ərzində bərqərar edəcəkdir və “Azercell” də öz növbəsində, Azərbaycan rabitə bazarında təsdiq edilmiş yenilikçi kimi, hər zaman yeni texnologiyaları təqdim etməyə hazırdır.

Tədbirdə Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean Regionu üzrə iqtisadi və sosial Komissiyasında İnformasiya və Kommunikasiya texnologiyaları və inkişaf bölməsinin rəhbəri Atsuko Okuda, “Cisko Systems” şirkətinin ölkələrin rəqəmsallaşdırılması üzrə Akselerasiya Proqramının qlobal əməliyyatlar direktoru Enriko Albertin , “Türk Telekom” İnternational şirkətinin baş icraçı direktoru Mehmet Toros, “Türkcell” şirkətinin baş icraçı direktoru Kaan Terzioğlu və digərləri mövzu ətrafında fikir mübadiləsi aparıblar. Qeyd edək ki, tədbirdə “Genişzolaqlı bağlantı”, “Süni intellekt”, “Əşyalar interneti”, “Elektron xidmətlər”, “İKT əsaslı startaplar və innovativ sahibkarlıq”, “Dördüncü Sənaye İnqilabı”, “Elmtutumlu istehsalat”, “Kiberhazırlıq” kimi mövzular da müzakirə olunub. Konfransın bundan sonra ənənəvi olaraq hər il “Bakutel” beynəlxalq sərgisi çərçivəsində təşkil olunması nəzərdə tutulur.

***“Azərbaycan”***

# 4 min insanı rahatlığa qovuşduran layihə

*Əvvəli 1-ci səh.*

4 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Qax-Qıpçaq-Ağyazı avtomobil yolu asfalt beton örtüklüdür. Yol salınan zaman 288,7 min kubmetr torpaq işləri görülüb, Qax şəhərinin girişində yolun dağ yamacı hissəsində çay daşından 2250 metrlik istinad divarı tikilib, ümumi uzunluğu 69 metr olan 2 körpüdə təmir işləri aparılıb, 210 müxtəlif yol nişanları və göstərici lövhələr, 10 avtodayanacaq quraşdırılıb.

Bu yolun çəkilməsi Qax rayonu üçün böyük iqtisadi əhəmiyyətə malikdir. Sakinlərin rayon mərkəzinə gediş-gəlişini rahatlaşdıran yol həm fərdi təsərrüfatlarda, həm də pay torpaqlarında əkib-becərilən məhsulların bazarlara daşınmasını asanlaşdırıb. Üstəlik yeni yol Yevlax istiqamətindən gələn yolu 15 kilometr qısaldıb. İndi “Kötüklü” dəmiryol stansiyasına gedib-gəlmək də xeyli rahatdır.

Müsahibimiz müəssisənin qış mövsümünə hazırlığı ilə bağlı texniki təminatın yüksək səviyyədə olduğunu dedi. Bildirdi ki, kollektivin qarşısına qoyulan əsas məqsəd hava şəraitindən asılı olmayaraq hər zaman hərəkətin intensivliyini təmin etməkdir.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# “Bakutel 2018”: “Ölkəmiz İKT sahəsində də nümunə göstərir”

*Əvvəli 1-ci səh.*

20 dövləti təmsil edən 230 şirkət sərgidə İKT sahəsinin ən son nailiyyətlərini, innovasiyaları nümayiş etdirməklə beynəlxalq əməkdaşlığın üfüqlərini genişləndirir.

“Bakutel 2018” sərgisində 10 ölkə - İtaliya, İran, BƏƏ, Belarus Respublikası, ABŞ, Sloveniya, Türkiyə, Fransa, Xorvatiya və Polşa milli stendlərlə çıxış edir. Diqqəti çəkən odur ki, sərgidə iştirak edən şirkətlərin yarıdan çoxu yerli şirkətlərdir.

Azərbaycan Prezidentinin Bakı Ekspo Mərkəzini ailəsi ilə birlikdə ziyarət etməsi dövlətin bu tədbirə ayırdığı xüsusi diqqətin təzahürüdür. XXIV Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar “Bakutel-2018” sərgi və konfransının iştirakçılarına ünvanladığı məktubda Prezident İlham Əliyev sərgiyə necə önəm verildiyini diqqətə çatdırıb: “Bu gün Azərbaycanda telekommunikasiya üzrə yeni texnologiyaların tətbiqi və xidmət şəbəkəsinin ən müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilməkdədir”. Dövlət başçısı “Şəbəkə” xidmət mərkəzlərinin sayının davamlı artmasını, məlumatların vahid mərkəzdə təhlükəsiz saxlanması üçün beynəlxalq səviyyədə təhlükəsizlik standartlarına cavab verən Data Mərkəzinin qurulmasını qeyd edib. Məktubda informasiya-kommunikasiya texnologiyalarına marağın artırılması və gənclərin innovativ ideyalarına dəstək məqsədilə paytaxtda, həmçinin bölgələrdə “İdeyadan Biznesə” startap turlarının və müxtəlif yarışların təşkilinin, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılmasının ölkəmizdə yüksək texnologiyaların inkişafına təkan verəcəyi vurğulanmışdır.

“ITU” İttifaqının Baş katibi Haulin Çjaonun da sərgi iştirakçılarına ünvanladığı məktubda “ITU” İttifaqı tərəfindən reallaşdırılan çoxsaylı layihələrdə Azərbaycanın artan rolunun beynəlxalq miqyasda aydın göründüyü bildirilmişdir. “Bakutel” sərgisinin fəxri qonaqları arasında Rusiya, Əfqanıstan, Belarus, Bolqarıstan, İran, Qazaxıstan, Qırğızıstan, Latviya, Türkmənistan, Türkiyə, Özbəkistan və digər ölkələri təmsil edən nazirlər və ali qonaqların yer alması bu vacib tədbirin yalnız Azərbaycan yox, həm də bütün dünya üçün xüsusi əhəmiyyət kəsb etdiyini qabardan amillərdəndir.

Sərgidə rəqəmsallaşdırma, “Big Data”, M2M”, əşyaların interneti, bank texnologiyaları, “4-5G” mobil texnologiyalar, optik lif və “bulud” texnologiyaları sahəsində xidmətlər, kibercinayətkarlığın qarşısını almağın ən son üsulları, dövlət xidmətləri, elektron səhiyyə, süni intellekt, mobil cihaz və ləvazimatlar, “Ağıllı şəhər”, pilotsuz uçuş aparatlarını idarəetmə sistemləri və bir sıra digər sahələr üzrə həll variantları təqdim edilir.

Sərginin ən maraqlı məqamlarından biri də Azərbaycanda yeni nəslin - məktəblilərin burada geniş təmsil olunmasıdır. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə həyata keçirilən “Robopark” layihəsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Məktəblilərin intellektual elmi-texniki yaradıcılığının inkişafı, yüksək texnologiyalara marağının artırılması, robot texnikasının əsasları ilə bağlı məlumatlara yiyələnməsinə yaradılan geniş imkanlar gələcəkdə mütləq bəhərini verəcək, yeni texnologiyalar sahəsində püxtələşən gənc nəslin formalaşmasında əvəzsiz rol oynayacaq. Belə ki, layihə çərçivəsində nazirlik Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə 23 nömrəli orta məktəbdə ilk “Robopark” robot texnika laboratoriyası yaradıb.

Bu ilin aprelindən Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, Azərbaycan Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, “Microsoft” və “Azercell” şirkətlərinin dəstəyi ilə nazirlik tərəfindən “İdeyadan Biznesə” layihəsinin icrasına başlanılıb. Yeddi ay ərzində respublikanın ayrı-ayrı şəhər və rayonlarında keçirilən startap turuna 2 mindən çox iştirakçı qatılıb. Ümumilikdə seçilən 75 komandadan 15-i respublika finalında iştirak hüququ qazanıb.




Sərginin özəlliklərindən biri də odur ki, yerli şirkətlər əvvəlki illərə nisbətən daha geniş təmsil olunur. “Bakı Telefon Rabitəsi” MMC - “Baktelecom” və “Aztelekom” sərgidə birgə stendlə sıxış edir. Birinci regional Data Mərkəzi “Microsoft” şirkəti ilə birlikdə müştərilərə ən əlverişli şərtlərlə virtual mühit üçün lisenziyalaşdırılmış əməliyyat sistemi təqdim edir.

Müəssisə və təşkilatlarda sənəd dövriyyəsini elektronlaşdırmağa imkan verən “Made in Azerbaijan” brendinə uyğun olaraq yerli mütəxəssislər tərəfindən “AzDoc” adlı proqram hazırlanıb. “Elektron imza və Elektron sənəd haqqında” qanuna və kargüzarlıq təlimatlarına uyğun olan proqram hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi daxilində tətbiq olunur. Bu yeniliklərin üstün tərəfi ondan ibarətdir ki, əvvəllər idarə və təşkilatların fəaliyyətini təmin edən proqramların böyük əksəriyyəti xaricdən alınırdı. Azərbaycanlı proqramçılar bu sərgidə ən çətin məsələlərin həllində heç də xarici həmkarlarından geri qalmadıqlarını nümayiş etdirə bildilər.

Dövlət Radiotezliklər İdarəsi bu il “Bakutel-2018” çərçivəsində ən yeni informasiya-kommunikasiya texnologiyalarının ölkədə tətbiqinə şərait yaradılması üçün müasir radiomonitorinq, mobil rabitə xidmətlərinin müqayisəli analizi və digər bu kimi sistem və texnologiyalarını nümayiş etdirir.

Sərgidə “Azərpoçt” MMC tərəfindən tam avtomatlaşdırılmış, 24 saat ərzində fasiləsiz fəaliyyət göstərən poçt şöbəsinin prototipi də təqdim olunur. Artıq iki ildir innovativ və texnoloji yeniliklərlə təchiz olunan “Şəbəkə” xidmət mərkəzləri yaradılıb. Azərbaycanın “Nafantano” şirkəti sərgidə xidmət və məhsullarını geniş təqdim edir. Onlayn satış həyata keçirən və qeyri-adi oyuncaq heyvanlar istehsal edən bu şirkət ziyarətçilər üçün maraqlı idi. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sərgidə kiçik və orta sahibkarların hüquqlarının qorunması ilə bağlı müraciətlərə onlayn baxılması sistemini nümayiş etdirir.

Diqqəti çəkən ən vacib məqamlardan biri “Bakutel” sərgisinin məktəblilərdən sonra gənc layihəçilərə öz ixtira və proqramları haqqında məlumat vermək üçün geniş imkan yaratmasıdır. Sərgidə müxtəlif innovasiya mərkəzlərini təmsil edən rekord sayda - 50-dən artıq startap təmsil olunub. Gənc ixtiraçılar və proqramçılar turizm, ekologiya, səhiyyə və maliyyə sektorları üçün parlaq innovativ ideyalarını təqdim edirlər. Məhsulların əsas hissəsi virtual və artırılmış reallıq texnologiyaları, veb-sayt və mobil tətbiqlərlə bağlıdır. Bu isə artıq ölkəmizdə müasir innovativ texnologiyalara yaradıcılıqlarını həsr edən yeni ixtiraçılar və proqramçılar nəslinin yetişməyə başladığını təsdiqləyir. “Bakutel-2018” bir daha sübut edir ki, Azərbaycan İKT sahəsində yeni bilik və ideyaları ortaya qoyan müasir dövlətə çevrilir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Rusiya Rəssamlıq Akademiyasında Tahir Salahovun yubileyi qeyd edilib





Moskvada, Rusiya Rəssamlıq Akademiyasında Tahir Salahovun yubileyi qeyd edilib.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Azərbaycanın və Rusiyanın xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, Avropa Elm və İncəsənət Akademiyasının həqiqi üzvü, Dövlət Mükafatı Laureatı Tahir Salahovu yubileyi münasibətilə təbrik edərək deyib: "Böyük həmyerlimiz Tahir Salahovu yubileyi münasibətilə təbrik etmək mənim üçün böyük şərəfdir. Mənim fikrimcə, bizim dövrdə 90 il yaşamaq və həyat eşqi ilə dolu, cəmiyyətə, öz ailəsinə, dostlarına faydalı olmaq böyük hünərdir".

AZƏRTAC xəbər verir ki, Rusiya Rəssamlıq Akademiyasında rəssamın yubiley gecəsində çıxış edən səfir Tahir Salahovun doğum gününün Azərbaycanda böyük bayram olduğunu qeyd edib. "Bizim möhtərəm Prezident İlham Əliyev Tahir Teymur oğlunun ölkəmizin bütün dövlət təltiflərinə layiq görüldüyünü vurğulayıb. Azərbaycanda yeni dövlət təltifi - "Əmək" ordeni təsis olunub. Tahir Teymur oğlu da bu ordenin birinci dərəcəsi ilə təltif edilib. Noyabrın 29-da Prezident İlham Əliyev yubilyara zəng vurub və onunla xeyli söhbət edib", - deyən səfir daha sonra əlavə edib ki, böyük ustadın yaradıcılığı hər hansı orden, medal və təltiflərdən daha parlaqdır.

P.Bülbüloğlu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Tahir Salahova təbrikini oxuyub.

Rusiya Federasiyası Hökumətinin sədr müavini Olqa Qolodets Rusiya Prezidenti Vladimir Putinin yubilyara təbrik məktubunu oxuyub. Tahir Salahovun canlı klassik olduğunu qeyd edən O.Qolodets daha sonra deyib: "Biz hamımız Sizin əsərlərinizlə tanışıq və onları sevirik. 2016-cı ildə Tretyakov Qalereyasında Sizin sərginiz keçirildi. Sizin işləriniz Tretyakov Qalereyasında daim nümayiş etdirilir və bütün dünyada yüksək qiymətləndirilir. Sizə uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzu edirəm".

Rusiya Rəssamlıq Akademiyasının prezidenti Zurab Sereteli yubilyara I dərəcəli "İncəsənətə xidmətə görə" ordenini təqdim edib.

Tahir Salahovun qızı, rəngkar və heykəltəraş, Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü Aydan Salahova jurnalistlərə müsahibəsində qeyd edib ki, Tahir Salahov istedadlı rəssamların bütöv bir nəslini yetişdirib. A.Salahova deyib: "Yubiley günündə Tahir Salahovun Vyetnam, Əlcəzair, Meksika, Hollandiya və digər ölkələrdən olan şagirdlərindən minnətdarlıq sözləri səslənib. O, bizə rəsm sənətinin, rəngkarlığın sirlərini, lakonikliyi öyrətməklə bərabər, həm də həyat məktəbi, həyat dərsi keçib - incəsənətə üstünlük verməyi və bu istiqamətdə irəliləməyi öyrədib".

# Fikrət ƏLİYEV: "Jurnalımızın "Web of Science Awards 2018" mükafatına layiq görülməsi Azərbaycan elminin böyük nailiyyətidir"

"Tətbiqi və Hesablama Riyaziyyatı" ("Applied and Computational Mathematics") jurnalının "Web of Science Awards 2018" mükafatına (Q1 siyahısına daxil olmaq nominasiyası) layiq görülməsi Azərbaycan elminin böyük nailiyyətidir. Azərbaycan alimlərinin əməyinin bu cür yüksək səviyyədə qiymətləndirilməsi bizi ruhlandırır və gələcəkdə daha səmərəli işləmək üçün qarşımıza böyük vəzifələr qoyur.




Bunu AZƏRTAC-a müsahibəsində "Tətbiqi və Hesablama Riyaziyyatı" jurnalının baş redaktoru, Bakı Dövlət Universiteti (BDU) Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Fikrət Əliyev söyləyib.

Müasir dövrdə ölkəmizdə elm sahəsinin inkişafında mühüm addımların atıldığını qeyd edən F.Əliyev "Web of Science" təşkilatı tərəfindən institut və jurnalların, müxtəlif sahələrdə çalışan alimlərin fəaliyyətinin qiymətləndirildiyini söyləyib.

Akademik bildirib ki, 2002-ci ildən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və AMEA-nın dəstəyi ilə BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda buraxılan "Tətbiqi və Hesablama Riyaziyyatı" jurnalı Azərbaycanın elm tarixində ilk və yeganə elmi nəşr olaraq 2008-ci ildə "Thomson Reuters" agentliyinin (indiki "Clarivate Analytics") genişləndirilmiş siyahısına daxil edilib.

Jurnal 2010-cu ildən impakt faktor (keyfiyyət dərəcəsi) alıb. Ötən 8 ildə jurnal bu sahədə öz liderliyini qoruyub saxlaya bilib. "Tətbiqi və Hesablama Riyaziyyatı" "Web of Science" təşkilatının yeganə impakt faktorlu Azərbaycan elmi jurnalıdır.

Son zamanlar Azərbaycanın bir sıra jurnallarının bu təşkilatın siyahısına daxil edildiyini deyən alim həmin nəşrlərin hələlik heç birinin keyfiyyət dərəcəsinin olmadığını bildirib.

F.Əliyev diqqətə çatdırıb ki, 2017-ci il üçün "Tətbiqi və Hesablama Riyaziyyatı" beynəlxalq elmi jurnalının keyfiyyət dərəcəsi 2.365-ə yüksəlib. Jurnal dünyada bu siyahıda tətbiqi riyaziyyat, yüksək texnologiyalar sahəsi üzrə yer alan 252 beynəlxalq nəşr arasında 19-cu, Avropa İttifaqında 4-cü, keçmiş sovet ölkələri sırasında isə 1-ci yerdədir. Beynəlxalq elmi jurnalının redaksiya heyətinə dünyanın 18 ölkəsindən 32 görkəmli alim daxildir.

# Şəhid ailələri onlara göstərilən qayğını dəyərləndirirlər

...Şahinlər səmanı sevirlər. Onlar qıy vuran qartallar kimi zirvəsevər olurlar. Çünki səmanın ənginliklərinə ucaldıqca dünyanın bir parçası olan Vətənin hər qarışını seyr edirlər. Onlar da belə sevirdilər Vətənin açıq səmasını, günəş nurundan cana gələn torpağını. Eyni zamanda tapdaq altında qalan, ayağımız dəyməyən, gedib-gələni olmayan cığır və izləri də sevirdilər axı...



Bu amallı şahinlər peşə seçəndə yanılmır. Belə şahinlərimizdən biri də Təbriz Musazadə idi. Vətən göylərində, səmanın ənginliklərində, buludlardan da yuxarıda idi 2 aprel 2016-cı il tarixədək.

O gün erməni vandallarının canına vəlvələ salanların biri də Təbrizin "dəmir qanadlı qartal"ı - "Mİ-24"-ü idi. Manevrləri ilə düşmən başına ələdiyi mərmi yağışı "salamat qalan" daşnakları səngərindən çıxıb qaçmağa məcbur etmişdi...

Təbriz Musazadə 12 avqust 1981-ci il qədim Borçalı ellərindən olan Başkeçidin (indiki Dmanisi rayonu) Yaqublu kəndində dünyaya göz açsa da, taleyi elə gətirdi ki, vətənpərvərliyi, cəsurluğu daşnakları vahiməyə saldı. Orta məktəbi bitirdikdən sonra C.Naxçıvanski adına hərbi liseyi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini, Uçuş Hazırlığının Təlim-Tədris Mərkəzini, 2011-ci ildə isə Türkiyədə Uçuş Təhlükəsizlik Kursunu bitirdi.

Xidmət müddəti dövründə Azərbaycan Respublikasının müdafiə naziri adından 4 döyüş medalı ilə təltif olunan mayor Təbriz Musazadə təyyarəçi, baş təyyarəçi, manqa komandiri, eskadrilya qərargah rəisi vəzifələrində çalışdı. O, həmişə aldığı döyüş tapşırıqlarını layiqincə yerinə yetirirdi. 2016-cı il aprel ayının 2-də də Vətən naminə, Qarabağ uğrunda ölüm-dirim savaşına atıldı.

Füzuli istiqamətində gedən ağır döyüşlərdə düşmən qüvvələri öncə hava hücumundan müdafiə olunmağa çalışırdı. Bunu o gün səma qartalları da yaxşı bilirdi. Ona görə də hər üç şahin - mayor Təbriz Musazadə, mayor İrfan Vəlizadə və baş leytenant Əbu-Bəkir İsmayılov hər şeyə hazır idi. Məhz onların "Mİ-24" hərbi helikopteri ilə endirdiyi zərbələr düşməni pərən-pərən salırdı.

Səmada "min bir oyun çıxaran" cəsurlar bu ölümsaçan atəşlərdən qorxmur, düşmən başına mərmi yağdırırdılar. Birdən sanki "hava qaraldı..." Sən demə, onların son döyüşü imiş. Ermənilərin canına vəlvələ salan şahinlər hədəf alındılar.

Ermənistan verdiyi itkinin daha çox olacağını duyaraq, beynəlxalq təşkilatlardan Azərbaycanın döyüşləri saxlamasını xahiş etdi.

...O gün səmadan mərmi yağışı yağsa da, qartallarımız qanları ilə ana torpağa "Şəhidlər ölməz, Vətən bölünməz!" yazdılar.

"N" saylı hərbi hissənin komandiri mayor Rəşad Əkbərov o günləri xatırlayır, şəhidlik zirvəsinə yüksələn üç dostun son döyüşlərdə göstərdiyi qəhrəmanlıqdan danışmaqdan yorulmur...

O qalibiyyət günündən ötən müddətdə mayor Təbriz Musazadənin ailəsində də çox şeylər dəyişdi. Balaları Tayfunu ilə Onurunun anası - ömür-gün yoldaşı Pərişan xanıma səhər saat 5 radələrində "çəməngözlü"sü sonuncu mesajı yazıb: "...bircə kəlmə xoş söz..."

Pərişan xanımı qəhər boğsa da, iradəsini toplayıb sözünə davam edir: "2 aprel ailəmizə qəm-qüssə, balalarıma atasızlıq ağrısı gətirsə də, qürurla deyə bilərik ki, həmin tarix həm də düşmən üzərində qələbə sevinclərini xalqımıza yaşatdığına görə müqəddəsdir!"

Səmalar vurğunu, "çəməngözlü"sündən aldığı o qara xəbəri xatırlamaq istəməsə də, zorla eşidiləcək səslə dillənir: "...Pəncərəni açıb paltar sərirdim. Hava çiskinli idi, birdən dayandım. Paltarı qoyub, televiziyanın qarşısına keçdim. Xəbərlərdə ekranın aşağısından qaçan sətirlərdə həyatımızın alt-üst olduğunu bildirən bir cümlə oxudum: "Mİ-24" helikopteri vurulub". İnanmadım. Özümə təsəlli verməyə çalışdım: "Sakit ol, Pərişan, o deyil, ola bilməz". Zəng etdim, çatmadı. Heç bir hərbçi yoldaşı açmadı telefonu. Dəqiqələr keçir, saatın əqrəbləri elə bil beynimin içində taqqıldayırdı. Evdə iki övladımdan başqa heç kim yox idi. Mənə baxırdılar. Təmkinli olmalıydım. Özü tapşırmışdı: "Qapına gələn, suallarına cavab verə bilməyən, baxışları yerə dikilən hərbçilərə hazır ol!" Bu il şahinim Azərbaycan səmasını bəzəmədi. Bu il səma Təbrizsiz qaldı..."

Pərişan Musazadə sözünə nöqtə qoymağa tələsmir. O, şəhidlərimizə dövlət qayğısının yüksək səviyyədə olduğunu deyir. Onların müqəddəs ruhları naminə atılan hər addımın xalq tərəfindən birmənalı şəkildə dəstəkləndiyinin şahidi kimi bəzi bədxahların bundan öz siyasi ambisiyalarını gerçəkləşdirməyə çalışmalarını qəbul etmir: "Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim şəhid ailələrinin, Qarabağ əlillərinin, kimsəsiz uşaqların qayğısına qalmasını kim unuda bilər ki? Şəhid adının şərəfini uca tutan Ali Baş Komandanın ordumuzun gücləndirilməsi, işğal altında qalan ərazilərimizin azad olunması istiqamətində yürütdüyü siyasət beynəlxalq aləmdə də müdafiə edilir. Biz şəhid ailələri dövlət başçısının siyasətini dəstəkləməli və bu istiqamətdə təbliğatçıya çevrilməliyik. Bu məqsədlə də "Şəhid Övladları və Kimsəsiz Uşaqlara Yardım" İB yaratma qərarına gəldik".

Pərişan xanım deyir ki, üç ildir şəhid mayor Təbriz Musazadənin adını daşıyan Təhsil və İncəsənət Mərkəzini yaratmaqla məşğuldur. Bu müddət ərzində şəhid övladlarına və kimsəsiz uşaqlara müxtəlif fənlər üzrə müəllimlərlə birlikdə təmənnasız dərslər keçir. Könüllülərdən ibarət olan birliyin hər bir üzvü şəhid ailələrinə dəstək olmağı əsas məqsədləri hesab edir. Sevindirici haldır ki, könüllülük prinsipi ilə bura ərizə verən müəllimlərin sayı artmaqdadır. Onlar şəhid övladlarına könüllü dərs demək üçün birliyin fəaliyyətində yaxından iştirakı özlərinin vətəndaşlıq borcu sayırlar.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Azərbaycan muğamının UNESCO-nun Reprezentativ Siyahısına daxil edilməsinin yubileyi Ankarada təntənə ilə qeyd olunub

Azərbaycan muğamının və "Səma" rəqsinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin onuncu ildönümü münasibətilə Ankarada mərasim təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının təşəbbüsü və dəstəyi, TÜRKSOY-un və ölkəmizin Ankaradakı səfirliyinin təşkilatçılığı ilə keçirilib.

Azərbaycanın Ankaradakı səfiri Xəzər İbrahim, TÜRKSOY-un baş katibi Düsen Kaseinov və UNESCO-nun təmsilçisi Dəniz Çakır tədbirdə çıxış edərək UNESCO-nun fəaliyyətinin əhəmiyyətindən bəhs ediblər. Çıxışlarda Azərbaycan muğamı, eləcə də "Qarabağ" muğam qrupunun fəaliyyəti ilə bağlı xoş fikirlər səsləndirilib.



Sonra bədii hissə olub.

"Səma" rəqs qrupunun ifasından sonra Azərbaycanın "Qarabağ" muğam qrupu konsert proqramı ilə çıxış edib. Konsertdə xalq artisti Mənsum İbrahimov ecazkar ifası ilə muğamsevərləri riqqətə gətirib. Xanəndəni əməkdar artistlər - Elçin Həşimov (tarzən), Elnur Əhmədov (kamança), Kamran Kərimov (nağara) müşayiət ediblər. Qrupun budəfəki repertuarında "Mənim Azərbaycanım", "Qarabağ şikəstəsi", "Aman ovçu", "Ay Laçın" və digər məşhur xalq və bəstəkar mahnıları yer alıb.

Muğamsevərlər "Qarabağ" qrupunun ifasını dəfələrlə ayaq üstə hərarətli alqışlarla qarşılayıblar.

# XİN: "Lazarev klubu"nda səsləndirilən fikirlər Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək məqsədi güdür

Ermənistan və Rusiya KİV bu ilin 30 noyabr-1 dekabr tarixlərində Yerevanda keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun birinci iclası barədə məlumatlar yayıb. Özünü ictimai diplomatiyanın yeni formatı qismində təqdim edən bu klubun əsas təşəbbüskarlarından və təşkilatçılarından biri hazırda Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının yeddinci çağırışında MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitə sədrinin birinci müavini vəzifəsini tutan Konstantin Zatulindir. Təşkilatçılar tərəfindən Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələrinin iclasa dəvət olunması, həmçinin iclas zamanı K.Zatulinin özü, eləcə də Rusiya XİN-in Veteranlar Şurasının keçmiş sədri, fövqəladə və səlahiyyətli səfir rançı olan Vladimir Kazimirov, MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyev və digər şəxslər tərəfindən səsləndirilən və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı açıq hücum xarakteri daşıyan fikirlər Azərbaycan və Rusiya arasında mövcud olan yüksəksəviyyəli münasibətlərə xələl gətirmək məqsədi güdür.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında bildirilir.

Açıqlamada deyilir: "Bundan əlavə, K.Zatulinin səsləndirdiyi fikirlər MDB çərçivəsində əməkdaşlığın inkişafı maraqlarına qarşı gələrək onun Dövlət Dumasının müvafiq komitə rəhbərinin birinci müavini statusuna uyğun gəlmir. V.Yevseyevin açıqlaması isə tamamilə cəfəngiyyatdır və MDB çərçivəsində əməkdaşlığın ruhuna zərbədir. Nəhayət, "Lazarev klubu"nun ümumi tonu Rusiya Federasiyası da daxil olmaqla ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesinin irəli aparılması səyləri ilə ziddiyyət təşkil edir.

Azərbaycan Respublikası məsələ ilə bağlı narazılığını Rusiya Federasiyasındakı səfirliyi vasitəsilə Rusiya Xarici İşlər Nazirliyinin diqqətinə çatdırıb".

# Azərbaycan Rus İcmasının bəyanatı

Azərbaycan Rus İcmasının Respublika Şurası Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini Konstantin Zatulinin Yerevanda Lazarev klubunun iclasındakı çıxışında Azərbaycana qarşı səsləndirdiyi qərəzli fikirlərə cavab olaraq dekabrın 5-də bəyanat qəbul edib. AZƏRTAC-ın təqdim etdiyi bəyanatda deyilir:

"Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini Konstantin Zatulin Yerevanda Lazarev klubunun iclasında çıxış edərkən, həmişəki kimi, Azərbaycanı 2016-cı ildə atəşkəs rejimini pozmaqda, təcavüzkar ritorikada və siyasətdə təqsirləndirib.

Biz artıq adət etmişik ki, Dövlət Dumasının MDB işləri və həmvətənlərlə əlaqələr komitəsi sədrinin müavini olan Konstantin Zatulin əslində Ermənistanın rəsmi ruporu və komitədə onun nümayəndəsidir.

Konstantin Zatulinin yaddaşı çox zəifdir və o unudur ki, əsl təcavüzkar Ermənistandır, onun silahlı dəstələri Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatlara başlayıb, Xocalını, Ağdam kimi digər şəhərləri, onların dinc əhalisini - qocalar, qadınlar və uşaqlarla birlikdə məhv ediblər.

Konstantin Zatulin unudur ki, məhz təcavüzkar ermənilər 1 milyondan çox azərbaycanlını öz evlərini tərk etməyə və öz torpaqlarında qaçqın və köçkünə çevrilməyə məcbur ediblər.

Erməni tərəfi Azərbaycanın işğal olunmuş torpaqlarında 738 tarixi abidəni, 83 min 500-dən çox eksponatı olan 28 muzeyi, 4 rəsm qalereyasını, 100-dən çox arxeoloji abidəni, 14 memorial kompleksi, 1891 maddi-mədəni resurs obyektini, o cümlədən 1107 mədəniyyət müəssisəsini dağıdıb. Qarət edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanıb.

Azərbaycan, onun rəhbərliyi 20 ildən çoxdur ki, Dağlıq Qarabağ ətrafında vəziyyəti dinc yolla nizamlamağa çalışır və yalnız 2016-cı ildə respublika ərazisinin fasiləsiz atəşə tutulmasına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri erməni təcavüzkarlarına layiqli cavab verərək ölkənin işğal altındakı ərazilərinin bir hissəsini azad ediblər.

Azərbaycanın rus əhalisi respublikanın ərazi bütövlüyünə dair qanuni hüququnu qorumağa, öz tarixi ərazilərinin müdafiəsinə yönəlmiş səylərini səmimi-qəlbdən və hərtərəfli dəstəkləyir. Yüzlərlə rus Azərbaycanın Dağlıq Qarabağ torpaqlarını erməni təcavüzkarlardan qoruyarkən canlarından keçiblər. Onların çoxu milli qəhrəman adına layiq görülüb, orden və medallarla təltif edilib. Ermənistan Azərbaycan xalqının səbrini nə vaxta qədər sınağa çəkə bilər, Azərbaycan əhalisinə təcavüzkar ermənilər tərəfindən işğal edilmiş doğma yurdlarına qayıtmaq üçün daha nə qədər vaxt lazımdır? Konstantin Zatulin bu suallara cavab verə bilərmi? Heç şübhəsiz ki, Azərbaycanın səbri hədsiz deyil. Azərbaycan Silahlı Qüvvələri tərəfindən təcavüzkar ermənilərə növbəti cavabın təqsirkarı Ermənistan rəhbərliyi və Ermənistanın vəkili Konstantin Zatulin olacaq".

*Təkrar*

## "Azərişıq" ASC müxtəlif tipli sayğacların satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1**

1 və 3 fazalı elektron tipli sayğacların satın alınması - 400 manat

**LOT-2**

MP-106 markalı Smart-kart tipli 1 fazalı sayğacların satın alınması - 400 manat

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32)).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 26 dekabr 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 8 yanvar 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 9 yanvar 2019-cu il tarixdə saat 16:00-da Ələsgər Qayıbov küçəsi, 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına Mərkəzi laboratoriyanın iş proseslərinin avtomatlaşmasını və operativ təhlillərin aparılmasını təmin edəcək, həmçinin cəmiyyətdə tətbiq edilən digər informasiya sistemləri ilə inteqrasiya rejimində işləyəcək proqram təminatının hazırlanması işlərinin satın alınması məqsədilə
## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431 47 67/2288) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 12 dekabr 2018-ci il saat 15.00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda 13 dekabr 2018-ci il saat 15:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Bakı Metropoliteni" QSC "Bakımetrolayihə" İnstitutu üçün kompüter avadanlıqlarının və Bənövşəyi xəttin "B-03" stansiyasının vestibüllərində quraşdırılması nəzərdə tutulan ANM turniketlərinin alınması və quraşdırılması işlərinin satın alınması üzrə
## *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan, (Əlaqələndirici şəxs: Zakir Hacıyev, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakımetrolayihə" İnstitutu üçün kompüter avadanlıqlarının satın alınması.**

**LOT-2. "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xəttinin "B-03" stansiyasının vestibüllərində quraşdırılması nəzərdə tutulan ANM turniketlərinin alınması və quraşdırma işlərinin satın alınması.**

**İştirak haqqı - LOT-1 - 200 manat**
**LOT-2 - 300 manat**

| | |
|---|---|
| Hesab: | AZ98AZRT38050019440010268002 |
| VÖEN | 1402871431 |
| Bank: | AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı) |
| Kodu: | 501361 |
| VÖEN: | 9900006111 |
| M/H: | AZ02NABZ01350100000000022944 |
| S.W.İ.F.T: | AZRTAZ22 |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 dekabr 2018-ci il** saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08 yanvar 2019-cu il** saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **09 yanvar 2019-cu il** saat 15:30-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Paşinyan oğlunun əsgəri xidmətindən siyasi məqsədlər üçün istifadə edir

### Amma hər dəfə bunu xatırlatmaqla həm də Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini etiraf etmiş olur

*Əvvəli 1-ci səh.*

Buna görə də hazırda Ermənistanın baş nazirinin səlahiyyətlərini icra edən Paşinyanın ölkədə reytinqi sürətlə aşağı düşməkdədir. Qarşıdan həm də parlament seçkiləri gəlir. Bu seçkinin nəticələrini indidən proqnozlaşdırmaq çətindir. Əgər bir neçə ay əvvəl olsaydı, dəqiq nəticə söyləmək olardı. Amma indiki vəziyyətdə hansı siyasi qüvvənin parlamentdə daha çox yer əldə edəcəyini söyləmək mümkün deyil. Çünki qeyd edildiyi kimi, Paşinyan ölkədə əvvəlki kimi olduqca yüksək reytinqə malik deyil. Bunu onun özü də anlayır və vəziyyətdən çıxış üçün müxtəlif yollar axtarır. Bir neçə ay əvvəl R.Köçəryanı həbs etdirsə də, istəyinə sonadək nail olmayan N.Paşinyan indi də oğlunun Dağlıq Qarabağda xidmət keçməsini xatırlatmaqla xal qazanmaq istəyir. Elə bu mövzu hazırda Ermənistanda yeni söz davasını başladıb.

Paşinyanın oğlu Azərbaycan əraziləri sayılan Dağlıq Qarabağda hərbi xidmət keçir. Onun xidmətini hansı səviyyədə aparması barədə təfərrüata varmırıq. Söhbət ondan gedir ki, bu gənc əsgərliyini Azərbaycan ərazilərində keçir. Amma Paşinyanın qürurla xatırlatdığı bu məsələ Azərbaycan torpaqlarının işğalının Ermənistan hakimiyyəti tərəfindən təsdiq edilməsi faktıdır. Bəli, erməni baş nazir özünə siyasi dividend qazanmaq üçün övladını Dağlıq Qarabağa hərbi xidmətə göndərib. Və hər dəfə bunu diqqətə çatdırmaqla ölkəsinin də işğalçı olduğunu etiraf etmiş olur.

### Erməni hakimiyyəti humanitar təşəbbüslərə qoşulmaqdan uzaqdır

Ermənistan rəhbərliyi işğalçı siyasət yürütdüyü üçün həm də humanizm prinsiplərindən uzaqdır. Bunu bir neçə gün əvvəl Azərbaycanda olan hərbi əsir Arsen Baqdasaryan da müsahibəsində bildirdi. Xatırladaq ki, 1994-cü il təvəllüdlü A.Baqdasaryan 2014-cü il dekabrın 26-da Ağdam rayonunda qoşunların təmas xəttində təxribata cəhd edərkən saxlanılıb. Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 5 may tarixli qətnaməsi ilə 15 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. O, bu yaxınlarda əsirlərin "hamının-hamıya" prinsipi üzrə azadlığa buraxılması ilə bağlı Ermənistanın baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyana müraciət göndərib. Bütün hərbi əsirlərin və girovların "hamının-hamıya" prinsipi üzrə dəyişdirilməsi təşəbbüsü isə Azərbaycana məxsusdur. Lakin Ermənistan rəhbərliyi Baqdasaryanın müraciətinə biganə yanaşıb. Halbuki buna qədər Paşinyanın arvadı Anna Akopyan Azərbaycanda olan digər əsir Karen Kazaryanın ailəsinə iki dəfə baş çəkib.

Bütün hərbi əsirlərin və girovların "hamının-hamıya" prinsipi üzrə dəyişdirilməsi təşəbbüsü reallaşsa, Ermənistan Dilqəm Əsgərovu, Şahbaz Quliyevi və əsgər Elnur Hüseynzadəni azad etməlidir. Əvəzində Azərbaycanda olan hərbi əsirlər Ermənistana qaytarılacaq. Amma görünən odur ki, erməni hakimiyyəti bu cür humanitar təşəbbüslərə qoşulmaqdan uzaqdır. Hətta hakimiyyət dəyişikliyi də düşmən ölkədəki iqtidarın mahiyyətini dəyişdirə bilməyib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

## Ötən il dünyada terror qurbanlarının sayı azalıb



2017-ci ildə dünyada terror hücumları qurbanlarının sayı xeyli azalmışdır. Londonda İqtisadiyyat və Sülh İnstitutunun (IEP) açıqladığı "Terrorizmin qlobal indeksi"ndə deyilir ki, bu göstərici 2016-cı illə müqayisədə 27 faiz azalmışdır.

Xüsusilə İraq və Suriyada İŞİD ekstremist təşkilatının tədricən sıxışdırılıb çıxarılması fonunda təhlükəsizlik sahəsində vəziyyət yaxşılaşmışdır. Avropada ölənlərin sayı 2016-cı ildə 168 nəfər, ötən il 81 nəfər təşkil etmişdir. Bu tendensiya daha çox Almaniya, Fransa və Belçikada qeydə alınmışdır.

Avstraliyalı xeyriyyəçi, IEP-in banisi Stiven Killeleanın dediyinə görə, irəliləyiş ilk növbədə onunla əlaqəlidir ki, İŞİD cihadçılar arasında cazibədarlığını tədricən itirir. Bundan əlavə, hüquq mühafizə orqanları terrorçulara qarşı istifadə olunan müşahidə texnikasını təkmilləşdirmişdir.

Xatırladaq ki, Avropada partlayıcıdan istifadə etməklə törədilmiş sonuncu iri əlaqələndirilmiş aksiya 2016-cı ilin martında həyata keçirilmişdir. Brüssel hava limanında və metrosunda baş vermiş partlayışlar nəticəsində 30 nəfərdən çox adam həlak olmuşdur. Mütəxəssislər hesab edirlər ki, bundan sonra terrorçular əsasən təkbaşına fəaliyyət göstərəcək və sadə vasitələrdən istifadə edəcəklər.

## Moratoriumun tətbiqi "sarı jiletlər"i qane etmədi



Fransanın Baş naziri Eduar Filippin hökumətin yanacağın qiymətini yarım il müddətinə dondurmağa hazır olması barədə bəyanatı "sarı jiletlər"i qane etməmişdir. "Figaro" qəzetinin xəbərinə görə, onlar Filippin bəyanatını qeyri-məqbul hesab edirlər.

Nümayişçilərin təmsilçisi Benjamin Koşi bildirmişdir ki, Baş nazirin elan etdiyi tədbirlər "sarı jiletlər"i razı sala bilməz. "Fransızlar axmaq deyil və çörəyin qırıntılarını yox, bütövlükdə özünü tələb edirlər", - deyə Koşi vurğulamışdır. O qeyd etmişdir ki, xalq Prezident Emmanüel Makrondan hökumətin maliyyə siyasətini dəyişdirməyi gözləyir.

"Sarı jiletlər"in təmsilçisi əlavə etmişdir ki, "Prezident bunu edə bilmirsə, onda yeni seçkilər keçirmək təşəbbüsü ilə çıxış etməlidir". Onun dediyinə görə, şənbə gününə planlaşdırılmış etiraz aksiyası keçiriləcək, hərçənd nümayişi ləğv etmək çağırışları səslənir.

## Pompeo Rusiyaya ultimatum verdi



Rusiyaya ultimatum verən ABŞ-ın dövlət katibi Mayk Pompeo ortamənzilli və yaxınmənzilli raketlərin ləğvi haqqında müqavilənin şərtlərinə riayət olunmasını tələb etmişdir. Əks təqdirdə, ABŞ 60 gün ərzində sazişdən çıxacaq. "Bundan sonra ABŞ-ın müqavilədə qalması mənasını itirir", - deyə Pompeo bildirmişdir.

Dövlət katibi NATO ölkələri xarici işlər nazirlərinin Brüsseldə keçirilmiş görüşünün birinci günündən sonra keçirdiyi mətbuat konfransında demişdir ki, Rusiya sazişin öhdəliklərini icra etmir. O həmçinin vurğulamışdır ki, Moskvaya qarşı tədbirlər görülməlidir: "Rusiya müqaviləni pozsa da, biz özümüzü təmkinli aparırdıq və Moskvanı sazişin şərtlərini icra etməyə çağırırdıq".

Pompeo qeyd etmişdir ki, Moskvanın yeni raketləri Avropaya birbaşa təhlükədir. Rusiyanın atdığı addımlar ABŞ-ın və onun müttəfiqlərinin təhlükəsizliyinə təhdidi ciddi şəkildə artırır. Dövlət katibi əlavə etmişdir ki, bu məsələdə NATO-ya üzv ölkələrin hamısı Vaşinqtonla həmrəydir.

## Yeni Kaledoniyada zəlzələ baş verdi



Dünən Fransanın Sakit okeandakı inzibati-ərazi vahidi - Yeni Kaledoniya sahillərinin yaxınlığında 7,6 bal gücündə zəlzələ baş vermişdir. Təkanlar səhər saat 04:18-də qeydə alınmışdır. Episentr Tadin şəhərindən 153 kilometr cənub-şərqdə, 10 kilometr dərinlikdə idi. Sunami təhlükəsi elan olunmuşdur. Bu barədə ABŞ Geoloji Xidməti məlumat vermişdir.

Güclü zəlzələdən sonra 5,9 bal gücündə afterşok baş vermişdir. Təkrar təkanlar Tadin şəhərindən 122 kilometr cənub-şərqdə, 10 kilometr dərinlikdə qeydə alınmışdır.

## Slovakiya rusiyalı diplomatı ölkədən çıxardı



Slovakiya rusiyalı diplomatı persona non qrata elan etmişdir. "Röyter" agentliyinin xəbərinə görə, söhbət casusluq qalmaqalından gedir.

Bratislava iddia edir ki, Xarici İşlər Nazirliyinin işçisi casusluq fəaliyyəti ilə məşğul olmuşdur.

Slovakiyanın Baş naziri Peter Pelleqrininin dediyinə görə, hadisə ötən ayın axırlarında baş vermişdir. Hökumətin başçısı əlavə etmişdir ki, diplomat noyabrın 22-də persona non qrata elan olunmuş və Slovakiyanı 48 saat ərzində tərk etmişdir.

Rusiya hökuməti hələ ki bu məlumatı şərh etmir .

Xatırladaq ki, bundan əvvəl Çexiya hakimiyyət orqanları rusiyalı diplomatların sayını azaltmaq planlarından və Rusiya xüsusi xidmət orqanlarının ölkədə fəaliyyətini gücləndirməsindən danışmışdı.

## Pul bazası 442 milyon manat artıb

Azərbaycanda pul bazası dekabrın 1-nə 8 milyard 985,2 milyon manat təşkil edib.

Mərkəzi Bankın məlumatına görə, bu rəqəm noyabrın 1-i ilə müqayisədə 168,8 milyon manat azdır. İlin əvvəlinə nisbətən isə pul bazası 442 milyon manat artıb.

## Azərbaycanda 100 nəfərə 106 mobil telefon düşür

Azərbaycanda mobil rabitə abunəçilərinin sayı ölkə əhalisinin 106 faizini təşkil edir.

Bu barədə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə "Bakutel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransı çərçivəsində ilk dəfə olaraq keçirilən Xəzər İnnovasiya Konfransında deyib. Nazir bildirib ki, Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir, ev təsərrüfatlarının 68 faizində kompüter mövcuddur. Simsiz genişzolaqlı internet istifadəçilərinin nisbəti isə 73 faizdir.

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclisin deputatı Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin sabiq hakimi

**TURQAY HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Əziz Əzizov və Yasamal Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə atası

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rahim və Nazim Hüseynovlar ailələri ilə birlikdə Hüseynbala Mirələmova bacısı

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi tanınmış ziyalı, professor

**ƏJDƏR AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Vüqar Hüseynova anası

**MİNARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin "Azdövsutəslayihə" İnstitutunun rəhbərliyi və kollektivi səhmdar cəmiyyətin Daxili audit sektorunun müdiri Vüqar Hüseynova anası

**MİNARƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3620